KHAZAR REVIEW

№ 367 Noyabr 2017

XƏZƏR XƏBƏR

AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

Xəzər Universiteti
1991
BAKI
KHAZAR UNIVERSITY

İMTAHAN HƏYƏCANLARI



İÇİNDƏKİLƏR

Məzunlarla görüş: 1996-1997 4

Universitet xəbərləri 6

Semiotika üzrə 8-ci Beynəlxalq konfrans Xəzər Universitetində keçirildi 8

Xəzər StartUp layihəsinin üçüncü mərhələsi başa çatdı 12

Fələstin səfiri Xəzər Universitetində 14

Malayziya Perlis Universitetinin nümayəndə heyəti "Xəzər"də 16

SPE Azerbaijan Section Annual Report Released 21

***Kəramət Böyükçöl*. Müdirimi tərifləmək istəyirəm...** 25

Poem of Prof. Hamlet Isaxanli, Was Published on Exclusive Publication of Famous "First" Magazine Dedicated to Holy Makkah 26

Dövlət müstəqilliyi gününə həsr olunmuş bilik yarışması 32

"Ədəbi proses"in dördüncü toplusu 38

***Л. М. Гамидова*. Хазар в аппах** 40

NDU xəbərləri 48

Fidan Hacıyeva Musiqi Məktəbi tələbələrinin "Xəzər"də konserti 52

Xəzər Universitetində Dünya Vahid Sağlamlıq Gününə həsr olunmuş tədbir 60

Xalq artistinin yubileyi münasibətilə tədbir 64

***Shalala Hasanova*. Vorld Antibiotics Awareness week** 70

***Çi de Mopassan*. Valter Şnafsın macərası (*hekayə*)** 71

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Bəkyev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Afiq Əkbərov
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Eynur Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ
1991
BAKI

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Bakyev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Afiq Akbarov
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eynur Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Center

MƏZUNLARLA GÖRÜŞ: 1996 - 1997
MEETING WITH ALUMNI:

Oktyabrın 19-da Xəzər Universiteti Məzunlarla İş Mərkəzinin təşkilatçılığı ilə universiteti 1996-1997-ci illərdə bitirmiş məzunlarla universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının görüşü keçirildi. Məzunları səmimi salamlayan professor Hamlet İsaxanlı onlarla yenidən görüşməkdən məmnun olduğunu bildirdi, Xəzər Universiteti ilə məzunlar arasında sıx əlaqələrin qurulmasının çox əhəmiyyətli və faydalı nəticələr verə biləcəyini vurğuladı. Məzunlardan "Prim Group LLC" şirkətinin rəhbəri Məmməd Abbasbəyli, "GABEG Ltd" şirkətinin təsisçisi və direktoru Yaşar İsgəndərov, "Barama K.M" şirkətinin direktoru Yusif Hacıyev, "Caspian Breeze Travel" turizm şirkətinin meneceri Murad Aslanov, "Bioworks" şirkətinin Xəzər regionu üzrə nümayəndəsi Yusif Məmmədli, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşı Səadət Novruzova, "General Elektronics International" şirkətinin meneceri Kamran Nəsirov, Azərbaycan Respublikası Təhsil İnstitutu Ali təhsilin inkişafı şöbəsinin baş müəxəssisi Aydın Babayev, eləcə də Nigar Abbasbəyli və Svetlana Əsgərova çıxış edərək, öz fəaliyyətləri barədə geniş məlumat verdilər, tələbəlik illərinin bir çox xatirələrini bölüşdülər.

On October 19, the Career Center of Khazar University organized a meeting of the former alumni (graduated from 1996-1997) with Hamlet Isaxanli, the founder of the university, chairman of the Board of Directors and Trustees. Professor Hamlet Isaxanli welcomed the graduates, expressed his pleasure to have met them again and emphasized that close links between Khazar University and the alumni would have very significant and useful results. Mammad Abbasbeyli, Head of 'Prim Group LLC', Yashar Iskandarov, Founder and Director of 'GABEG Ltd', Yusif Hajiyev, Director of 'Barama K.M' Company, Murad Aslanov, Manager of 'Caspian Breeze Travel' Tourism Company, Yusif Mammadli, 'Bioworks' Representative on the Caspian Region, Saadat Novruzova, employee of the Presidential Administration of the Republic of Azerbaijan, Kamran Nasirov, manager of 'General Electronics International', Aydin Babayev, senior specialist of the Higher Education Development Department of the Azerbaijan Republic, as well as Nigar Abbasbeyli and Svetlana Askerova delivered a speech by giving extensive information about their activities, shared many memories of their student years.

Məzunların ilk müəllimlərindən olmuş Firangiz Nəsirova, Nabat Məmmədova, Roza Arazova, Xəzər Universiteti Multimedia Mərkəzinin direktoru Natella Barkaya da məzunları uzun illərdən sonra yenə də "Xəzər"də görməkdən sevinc və qürur duyduqlarını bildirdilər.

Xəzər Universiteti Məzunlar Assosiasiyasının vitse-prezidenti Ramal Əhmədov assosiasiyanın fəaliyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verdi.

Səmimiyyət və işgüzarlıq şəraitində keçən görüşdə Xəzər Universiteti ilə məzunlar arasında əlaqələrin gücləndirilməsi və sıx əməkdaşlığın qurulması sahəsində konkret təkliflər irəli sürüldü. Səmimi söhbət üçün məzunlara təşəkkür edən professor Hamlet İsaxanlı universitetlə məzunlar arasında işin sistemli şəkildə qurulmasının vacibliyini vurğuladı və öz konkret təklif və tövsiyələrini verdi.

Firangiz Nasirova, Nabat Mammadova, Roza Arazova, who were first instructors of the graduates and Natella Barkaya, director of Khazar University Multimedia Center, said that they were happy and proud to have seen them together again after many years at Khazar.

Ramal Ahmadov, Vice-President of the Khazar University Alumni Association, gave detailed information to the participants on the activities of the Association.

During the meeting, which created the atmosphere of sincerity and business, concrete proposals were made to strengthen relations and establish a close cooperation with between the alumni and Khazar University. At the end, Professor Hamlet Isaxanli thanked the graduates for their sincere conversation, highlighting the importance of systematically working with university graduates and gave specific recommendations.

REKTOR BİRİNCİ KURS TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞDÜ

Oktyabrın 26-da Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs universitetin Mərmər salonunda Humanitar və sosial elmlər fakültəsinin birinci kurs tələbələri ilə görüş keçirdi. H.Niknafs görüşdə tələbələrə Xəzər Universitetini seçdikləri üçün təşəkkürünü bildirdi, onları tələbə adını qazanmaları münasibətilə təbrik etdi və universitetin daxili nizam-intizamı, eləcə də, imtahan qaydaları ilə bağlı məlumatlandırdı.

Sonra fakültənin dekanı dosent Cabir Xəlilov çıxış edərək, onlara həm dərslərində, həm də imtahanlarda uğurlar arzuladı. Sonda tələbələrin sualları cavablandırıldı.

RECTOR MEETS WITH 1ST YEAR STUDENTS

On October 26, Dr. Hassan Niknafs, Rector of Khazar University held a meeting with 1st year students of Humanities and Social Sciences Department at Marble Hall. H. Niknafs thanked students for their choice of Khazar University, congratulated them on the ocassion of becoming students and gave information about internal discipline of the university, as well as examination rules.

At the end, Assoc. Prof. Jabir Khalilov, Dean of the faculty delivered a speech, and wished them success in their studies and exams. Finally, the students had a chance to obtain answers to their questions.

STATİSTİKA ŞURASININ ÜZVÜ PROFESSOR HAMLET İSAXANLI ŞURANIN İCLASINDA İŞTİRAK ETDİ

PROFESSOR HAMLET ISAKHANLI, MEMBER OF STATISTICAL COUNCIL, ATTENDS THE COUNCIL'S MEETING

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvü, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı noyabrın 15-də şuranın iclasında iştirak etmişdir.

İclasda əhalinin siyahıyaalınması ilə bağlı sorğu, siyahıyaalma vərəqələrinə daxil ediləcək suallar və "Rəsmi statistika haqqında" AR-ın Qanununa əlavə və dəyişikliklər müzakirə olunmuşdur. Professor Hamlet İsaxanlı müzakirə olunan məsələlərə dair öz təklif və fikirlərini bildirmişdir. O, əhali arasında xoşbəxtlik səviyyəsinin ölçülməsi məqsədilə sorğu keçirilməsini də təklif etmişdir.

Professor Hamlet Isakhanli, a member of the Statistical Council under the State Statistical Committee of the Republic of Azerbaijan, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in the Council's meeting on November 15.

The following issues such as the questionnaires on population census, the questions to be included in the census sheets, and the amendments to the Law of Azerbaijan Republic on Official Statistics were discussed at the meeting. Professor H. Isakhanli expressed his views and suggestions on the discussed issues. He also proposed conducting a survey to measure the level of happiness among the population.

XƏZƏR UNİVERSİTETİ PROMAX-IN PROQRAM TƏMİNATININ MODELLƏŞDİRMƏ PROSESİNİN LİSENZİYASINI ALDI

KHAZAR UNIVERSITY RECEIVES THE LICENSE OF THE PROMAX PROCESS SIMULATION SOFTWARE

Xəzər Universiteti ilə Bryan Tədqiqat və Mühəndislik (BR&E) Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) arasında razılaşmaya əsasən, dekabrın 6-8-də Xəzər Universitetində birgə təlim keçiriləcək.

Məlumat üçün bildirək ki, Texasda yerləşən Bryan Tədqiqat və Mühəndislik MMC 40 ildən artıqdır ki, enerji sənayesini qaz emalı, emal və neft-kimya proseslərinin dəqiq və səmərəli proqnozlaşdırılması qabiliyyəti ilə tanınan proses simulyasiya proqramı ilə təmin edir. Uzun bir araşdırma və inkişaf tarixini özündə birləşdirən şirkət müştərilərinin ən yaxşı simulyasiya vasitələri almasını təmin edərək, onlara mükəmməllik zəmanəti verir.

ProMax Bryan Tədqiqat və Mühəndislik şirkətinin yaratdığı və bütün dünyada kimya və neft mühəndislərinin qaz emalı, neft emalı və kimyəvi qurğuların layihələndirilməsi və optimallaşdırılmasında geniş istifadə etdiyi güclü və çoxyönlü proses simulyasiya proqramı paketidir. Bu proqram müvafiq sənaye sahələrində baş verən hadisələri anlamaq üçün vacib olan bütün emal qurğusunun və əlaqədar dəstək sistemlərinin modelləşdirilməsi, istilik dəyişdiriciləri, turşu qazının çıxarılması sistemləri və digər proseslərin modelləşdirilməsi də daxil olmaqla, bir çox imkanlara malikdir.

Bryan Tədqiqat və Mühəndislik şirkəti və ProMax proqramı haqqında daha ətraflı məlumatı bu link vasitəsilə əldə etmək olar:

https://www.bre.com/Default.aspx

For over 40 years, Bryan Research & Engineering (BR&E) based in Bryan Texas has provided the energy industry with process simulation software renowned for its ability to accurately and efficiently predict the performance of gas processing, refining and petrochemical processes. This company with a long history of research and development combined with their commitment to excellence unite to ensure that clients receive the best available simulation tools.

ProMax is a powerful and versatile process simulation software package provided by Bryan Research & Engineering widely used by Chemical and Petroleum engineers worldwide for designing and optimizing gas processing, refining and chemical facilities. This software has lots of capabilities including modeling of an entire processing facility and associated support systems, designing heat exchangers, acid gas removal systems and modeling any other processes which are essential for understanding the phenomena happening in pertinent industries.

According to the agreement in between Khazar University and Bryan Research & Engineering there is going to be a training session from 06.12.2017 to 08.12.2017 at Khazar University. Any further information in regards to Bryan Research & Engineering Company and Promax software could be obtained by visiting the following link:

https://www.bre.com/Default.aspx

SEMİOTİKA ÜZRƏ 8-Cİ BEYNƏLXALQ KONFRANS XƏZƏR UNİVERSİTETİNDƏ KEÇİRİLDİ

THE 8TH INTERNATIONAL CONFERENCE ON SEMIOTICS WAS SUCCESSFULLY HELD AT KHAZAR UNIVERSITY

Oktyabrın 28-də Xəzər Universitetində Gürcüstanın İlia Universitetinin Semiotika Araşdırmaları Mərkəzi və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə Semiotika üzrə 8-ci Beynəlxalq konfrans keçirildi.

Konfransın açılış mərasimində çıxış edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Gürcüstanın İlia Universiteti ilə təşkil olunmuş beynəlxalq semiotika konfransından olduqca məmnun qaldığını bildirdi. O, həmçinin, Gürcüstanla bağlı xatirələrini bölüşdü, bu ölkənin ona çox doğma olduğunu qeyd etdi.

Semiotika Araşdırmaları Mərkəzinin rəhbəri, professor Tsira Barbakadze konfransın təşkil edilməsində Xəzər Universitetinin göstərdiyi böyük dəstəyə görə öz təşəkkürünü bildirdi, iki ölkənin sıx dostluq münasibətlərini bir daha vurğuladı və professor İsaxanlıya hədiyyə təqdim etdi.

Plenar iclasda çıxış edən Bakı Slavyan Universiteti Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri professor Rəhilə Qeybullayevanın və dosent Qriqori Coxadzenin çıxışları böyük maraqla qarşılandı.

On October 28, the 8th International Conference on Semiotics, jointly organized by the Semiotic Research Centre of Ilia State University, Georgia and Khazar University, was held at Khazar University.

Speaking at the opening ceremony of the conference, Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, expressed his satisfaction with the International Conference on Semiotics organized in collaboration with Ilia State University, Georgia. He shared his memories of Georgia, and noted that this country was very native to him. Professor Tsira Barbakadze, director of the Semiotic Research Centre, thanked for the great support provided by Khazar University for the organization of the conference and emphasised the tight friendly relations between the two countries and presented her valuable gifts to Professor Isakhanli.

The speeches delivered, during the plenary session, by Prof. Rahila Geybulayeva, the head of the Department of Azerbaijani Language and Literature, Baku Slavic University, and Associate Professor Grigory Jokhadze, were truly memorable.

Ümumilikdə, konfransda Azərbaycanın Dillər Universiteti, İqtisadiyyat Universiteti və Xəzər Universitetini təmsil edən 15 iştirakçı semiotikanın müxtəlif sahələrini əhatə edən maraqlı mövzularda çıxış etdi.

Paralel olaraq, 3 sessiyada davam edən konfransda azərbaycanlı çıxışçılarla yanaşı, Gürcüstanın İlia Dövlət Universiteti, Şota Rustaveli Dövlət Universiteti, Tbilisi Dövlət Universiteti, Yakob Qoqebaşvili Dövlət Universiteti, İvane Cavakişvili Dövlət Universiteti, Akaki Tsereteli Dövlət Universiteti, Tbilisi Klassik Gimnaziyası, Qori Dövlət Müəllimlər Universiteti və Avropa məktəbini (Almaniya, Bonn) təmsil edən çıxışçılar əsasən ədəbiyyatda və memarlıqda (professor Quram Kipianinin çıxışı) semiotika mövzusuna diqqət çəkdilər.

Sonda, yekun qeydlər və sessiyalar üzrə mövzuların müzakirə nəticələri haqqında danışmaq üçün söz bölmə üzrə rəhbərlərə verildi.

Konfransı bağlamaq üçün son söz isə bir daha professor Tsira Barbakadze və professor Hamlet İsaxanlıya verildi. Hər iki tərəf konfransın keçirilmə səviyyəsindən, toxunulan maraqlı mövzulardan məmnunluq bildirdilər və belə konfransların daha geniş coğrafiyanı əhatə edərək, davamının olmasını arzu etdiklərini, bununla bağlı əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğuladılar.

In total, 15 participants from Azerbaijan, representing Azerbaijan State University of Languages, Azerbaijan State University of Economics, and Khazar University, delivered their speeches on fascinating topics covering different areas of Semiotics.

In parallel, at a three-session conference, along with Azerbaijani speakers, the participants representing Ilia State University, Shota Rustaveli State University, Tbilisi State University, Yakob Gogebashvili State university, Ivane Javakishvili State University, Akaki Tsereteli State University, Tbilisi Classic Gymnasium, Gory State Teaching Unversity, European School (Bonn, Germany) focused on Semiotics mainly in Literature and Architecture (Prof. Guram Kipiani's speech).

At the end, the chairs of each session spoke about the outcome of the presentations and discussions conducted in each session.

The last word to close the conference was once again given to Prof. Tsira Barbakadze and Prof. Hamlet Isakhanli. Both sides expressed satisfaction with the level of the conference and interesting issues touched upon, and emphasised the importance of collaboration in organising conferences, such as the 8th International Conference on Semiotics, which will cover a wider geography.

8th INTERNATIONAL SCIENTIFIC
CONFERENCE ON SEMIOTICS
Ilia State University, Georgia
Khazar University, Azerbaijan
October 28,
2017

XƏZƏR UNİVERSİTETİNİN VƏ "DÜNYA" MƏKTƏBİNİN RƏHBƏRLƏRİ ALMANİYADA BEYNƏLXALQ TƏDBİRDƏ İŞTİRAK ETMİŞLƏR

Xəzər Universitetinin təsisçisi,Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və "Dünya" məktəbinin təsisçisi Nailəxanım İsayeva noyabrın 19-22-də Almaniyanın Berlin şəhərində keçirilən "Müstəqil ikidilli məktəblərin "Məktəbə gedən yol" adlı beynəlxalq konfransı"da iştirak etmişlər.

Tədbirdə Nailəxanım İsayeva "Dünya" məktəbi haqqında məlumatla çıxış etmişdir. Professor Hamlet İsaxanlı Xəzər Universiteti və "Dünya" məktəbinin yaranma səbəbləri və şəraiti haqqında danışmışdır. Həmçinin, o, məktəb konsepsiyası və keyfiyyət mövzusunda çıxış etmiş, plenar iclaslardan birinə həmsədrdlik etmişdir.

Professor Hamlet İsaxanlı və Nailəxanım İsayeva Lomonosov Berlin məktəbinin işi ilə də tanış olmuşlar

HEADS OF KHAZAR UNIVERSITY AND "DUNYA" SCHOOL TOOK PART IN THE INTERNATIONAL EVENT HELD IN GERMANY.

On November 19-22, 2017, Prof. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, and Mrs. Naila Isayeva attended the "International Conference of independent bilingual schools "Road to the School"" in Berlin, Germany.

At the conference, Mrs. Naila Isayeva gave information about Dunya School. Prof. Hamlet Isakhanli talked about reasons for establishment and environment of Khazar University and Dunya School. He also delivered a speech on school conception and quality, and co-chaired one of the plenary sessions of the conference.

Prof. Hamlet Isakhanli and Mrs. Naila Isayeva also got acquainted with the work of Lomonosov Berlin School.

"XƏZƏR"Ə MƏKTUB

Xəzər Universitetinin təsisçisi,
Direktorlar və Qəyyumlar Şurasının
sədri professor Hamlet İsaxanlıya

Hörmətli Hamlet müəllim!

Bu məktubu Sizin almağınız təsadüfi deyildir. Sizin cəmiyyətdə söz sahibi və sosial proseslərə təsir edə bilən qüvvə olduğunuzu düşünürək, məsələnin həllində diqqətinizə, həssaslığınıza, vətəndaş məsuliyyətinizə güvənərək qadınlarımızın SƏSİ olacağınıza inanırıq.

Bildiyiniz kimi, "Qadınlara Qarşı Zorakılığa Son!" kampaniyası bütün dünyada 25 noyabr (Qadınlara qarşı zorakılıqla mübarizə üzrə beynəlxalq gün) və 10 dekabr (Beynəlxalq insan hüquqları günü) tarixləri arasındakı 16 gün müddətində qeyd olunur və təşkilatımız hər il bu kampaniyanı Azərbaycanda da keçirir. Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyətinin (RİQC) builki "Kimdir günahkar" kampaniyası *(#kimdirgunahkar)* zorakılığa məruz qalmış qadınların bu zorakılıqdakı günahkarlarını sorğulamaq məqsədini daşıyır.

Qadınlara qarşı zorakılığın çoxlarının düşündüyü kimi tək fiziki və ya cinsi deyil, həmçinin iqtisadi və psixoloji formaları mövcuddur. Hətta son iki forma daha çox yayılmışdır. Bəs bu vəziyyətdə günahkar kimdir? Qadın? Kişi? Qanunlar? Din? Cəmiyyət? Suallar çoxdur.... Biz inanırıq ki, istənilən problemin həlli onun mənbəyinin tapılmasından başlayır. Biz bu kampaniya ilə bütün dünyada mövcud olan ən aktual problemlərdən biri olan qadına qarşı zorakılığın gözə görünən və görünməyən mümkün səbəblərini qələmə aldıq. Bu kampaniya müddətində davamlı şəkildə alacağımız 12 açıqca qadın zorakılığında günahkar sayıla biləcək ən kiçik fiqurdan başlayır və bir çox məqamları əhatə edərək diqqəti artırmağa hədəflənir. Biz inanırıq ki *"Kimdir günahkar"* silsiləsində zorakılığa məruz qalan hər bir qadın özünü ən azı bir situasiyada görməklə vəziyyəti dəyişmək üçün bir addım atmağa çalışacaq. Əvvəlcədən qeyd etmək istərdik ki, bu açıqcalardakı günahlandırılan subyektlər şəxsə yönəlik olmayıb, ümumi ünvanlı olaraq hazırlanmışdır.

Bu məktubu Sizə zorakılığa məruz qalan, öldürülən, hüquqlarından məhrum edilən Azərbaycan qadınları adından göndəririk. Sizin qadın hüquqlarını tapdalayan "günahkarları" tapmaqda Azərbaycan qadınlarına kömək edəcəyinizə inanırıq! Ümid edirik ki, bərabər səylərimiz nəticəsində ölkəmizdə qadına yönəlik zorakılıq aktları kimi neqativ fenomenin sayı azalacaqdır. Əməkdaşlığınız üçün Sizə əvvəlcədən minnətdarlığımızı bildiririk.

Hörmətlə,

Şəhla İsmayıl
Rasional İnkişaf uğrunda
Qadınlar Cəmiyyətinin sədri

25 noyabr 2017

XƏZƏR STARTUP LAYİHƏSİNİN ÜÇÜNCU MƏRHƏLƏSİ BAŞA ÇATDI

Xəbər verdiyimiz kimi, oktyabr ayında Xəzər Universitetində StartUp layihəsinin birinci və ikinci mərhələləri keçirilmişdi. İştirakçıların 14 nəfəri 3-cü mərhələyə vəsiqə qazanmışdı. Həmin tələbələrin on biri Xəzər Universitetini, biri Odlar Yurdu Universitini və ikisi Bakı Ali Neft Məktəbini təmsil edirdi.

Noyabrın 7-də Xəzər StartUp layihəsinin üçüncu mərhələsi başa çatdı. Qiymətləndirmə komissiyası geniş tərkibdə bütün iştirakçıların təkliflərini ətraflı müzakirə edərək, təqdim olunan layihələri üç meyar (orijinallıq, aktuallıq və tətbiqinin reallığı) üzrə qiymətləndirdi. Komissiyanın yekun qərarına əsasən aşağıda göstərilən iştirakçılar müvafiq yerləri qazandılar:

Birinci yer: Məhəmməd Əlizadə, Xəzər Universiteti, Elektronika, Telekommunikasiya və Radiotexnika ixtisasının tələbəsi. - İdeya: Hazırkı dünyada istifadə olunan qaz sensorlarından fərqli olaraq, GSM900 modulu ilə mobil telefona zəng xəbərdarlığı edən qaz sensorunun yaradılması.

İkinci yer: Vladislav Pristinski, Xəzər Universiteti, MBA tələbəsi. - İdeya: İnsanlara alış-verişdə yeni orijinal sosial məsləhətçi olan Faşay-zerin (Fashiser) yaradılması

Üçüncü yer: Aydın Səlimli, Xəzər Universiteti, Turizm və otelçilik ixisasının tələbəsi. – İdeya: Tətbiqi və reallaşdırılması rahat olan, ikinci əl kitabların onlayn alış-veriş ehtiyacını qarşılayan secondbook.az veb saytının hazırlanması.

Noyabrın 16-da Xəzər StartUp layihəsinin qalibləri ilə görüş keçirildi. Görüşdə Xəzər Universitetinin rektoru Dr.Hassan Niknafs, Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, Elmi işlər üzrə prorektor Dr.İradə Xəlilova və müsabiqə komissiyasının üzvləri iştirak edirdilər.

Rektor Dr.Hasaan Niknafs qalibləri təbrik edərək, onlara sertifikatları və pul mükafatlarını təqdim etdi. Görüşün yekununda qaliblərlə layihələrinin tətbiqi yolları ətrafında müzakirələr aparıldı.

THIRD STAGE OF KHAZAR STARTUP PROJECT COMPLETED

As previously reported, the first and second stages of the StartUp project were held at Khazar University in October. Three out of 14 participants were qualified for the third stage. From these students, 11 of them represented Khazar University, one represented Odlar Yurdu University and two of them - Baku Higher Oil School.

On November 7, the 3rd stage of the Khazar StartUp Project was over. The Evaluation Commission discussed all the participants' proposals in details, evaluating the submitted projects on three criteria (originality, actuality and reality of application). Based on the final decision of the Commission, the following participants gained the respective places.

1st Place: Mahammad Alizadeh, a student majoring in Electronics, Telecommunications and Radiotechnology, Khazar University. – Idea: Creating gas sensors that warn mobile phones with GSM900 module, unlike the gas sensors used in the current world.

2nd Place: Vladislav Pristinski, an MBA student, Khazar University. – Idea: Creating Fashiser, the new original social consultant on shopping.

3rd Place: Aydin Selimli, a student majoring in Tourism and Hospitality, Khazar University. – Idea: Creating the secondbook.az website, whose application and implementation is convenient and meets the needs of second hand books shopping online.

On November 16, a meeting with Khazar StartUp Project winners was held. Dr Hassan Niknafs, the rector of Khazar University, Professor Mahammad Nuriyev, vice rector of Khazar University for Academic Affairs, Assoc. Prof. Irada Khalilova, vice rector for Research and the members of the competition commission participated in the meeting.

Dr Hassan Niknafs congratulated the winners and presented them certificates and cash prizes. At the end of the meeting, discussions were held with the winners on the ways of implementing the awarded projects.

FƏLƏSTİN SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Xəzər Universiteti Beynəlxalq Təhsil həftəsi (13-17 noyabr) çərçivəsində Beynəlxalq əlaqələr şöbəsi və Siyasi elm və beynəlxalq münasibətlər departamentinin birgə təşkilatçılığı ilə Fələstinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Nasser Abdel Karem noyabrın 17-də Xəzər Universitetinin qonağı oldu.

Universitetin rektoru Dr.Hassan Niknafs səfir Nasser Abdel Karemi qəbul etdi. Görüşdə, əsasən, Fələstinin Azərbaycandakı səfirliyi ilə Xəzər Universiteti arasında əməkdaşlıq müzakirə olundu. Görüşdə, həmçinin, Beynəlxalq Əlaqələr Şöbəsinin direktoru Turan Cəfərova, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev və Fələstinin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfirinin köməkçisi iştirak edirdilər.

Sonra səfir Siyasi elm və beynəlxalq münasibətlər departamentinin tələbələri üçün "Fələstin üzrə icmal" mövzusunda mühazirə oxudu. Mühazirədə Azərbaycan və Fələstin arasında ikitərəfli münasibətlər və Yaxın Şərqdə olan vəziyyət haqqında tələbələrə ətraflı məlumat verildi. Elmar Mustafayevin moderatorluğu ilə keçirilən müzakirə sual-cavab sesiyası ilə başa çatdı. Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin assistenti Elxan Qasımov da iştirak edirdi.

Səfir Nasser Abdel Karem dəvətə görə Xəzər Universiteti rəhbərliyinə öz minnətdarlığını bildirdi.

PALESTINIAN AMBASSADOR WAS A GUEST AT KHAZAR UNIVERSITY

On November 17, Khazar University hosted Nasser Abdel Karem , Ambassador Extraordinary and Plenipotentiary of Palestine to Azerbaijan, within the framework of Khazar University's International Education Week (13-17 November) organised by the International Affairs Department and Department of Political Sciences and International Relations.

Dr.Hassan Niknafs , rector of Khazar University received Nasser Abdel Karemi, Ambassador Extraordinary and Plenipotentiary of Palestine to Azerbaijan. The meeting focused mainly on cooperation between the Palestinian embassy in Azerbaijan and Khazar University. The meeting was attended by Turan Jafarova , Director of International Affairs Department, Elmar Mustafayev, Coordinator of Political Sciences and International Relations Department and Assistant to the Ambassador Extraordinary and Plenipotentiary of Palestine to Azerbaijan.

Later on, Nasser Abdel Karem, Ambassador Extraordinary and Plenipotentiary of Palestine to Azerbaijan, held a lecture on "Palestinian Review" for students of Political Sciences and International Relations Department. During the lecture, the students were given information on the bilateral relations between Azerbaijan and Palestine and the situation in the Middle East. The meeting ended with a question-and-answer session headed by Elmar Mustafayev, Coordinator of Political Science and International Relations Department. Elkhan Gasimov, Assistant of International Affairs Department also took part in the meeting. Ambassador Nasser Abdel Karem expressed his gratitude to Khazar University administration for the invitation.

P & G ŞİRKƏTİ NÜMAYƏNDƏLƏRİNİN TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ

Noyabrın 23-də P&G şirkətinin nümayəndələri Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri ilə görüşdülər. Görüşdə P&G şirkəti, təcrübə proqramları, iş imkanları və işə seçim mərhələləri haqqında tələbələrə ətraflı məlumat verildi.

Görüşün sonunda sual-cavab sessiyası keçirildi.

REPRESENTATIVES OF P&G COMPANY MET WITH STUDENTS

On November 23, the representatives of P&G Company met with the students of Department of Economics and Management of Khazar University. During the meeting, the students were given detailed information about P&G Company, internship programs, job opportunities and recruitment stages.

Question and answer session was held at the end of the meeting.

"DÜNYA" MƏKTƏBİNDƏ "KSENOFOBİYA VƏ TOLERANTLIQ" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLDİ

Noyabrın 23-də Bilik Fondunun və Binəqədi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbində "Ksenofobiya və tolerantlıq" mövzusunda tədbir keçirilmişdir.

Xəbəri tam şəkildə bu link vasitəsilə oxumaq olar:

https://525.az/site/?name=xeber&news_id=90107#Kalibri&gsc.tab=0

MALAYZİYA PERLİS UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

DELEGATION FROM UNIVERSITY OF MALAYSIA PERLIS VISITS KHAZAR UNIVERSITY

Noyabrın 22-də Malayziya Perlis Universitetinin akademik və administrativ işçiləri və tələbələrindən ibarət olan heyət Xəzər Universitetinin "Neftçilər" kampusunda qonaq oldular.

Tədbirin əsas məqsədi iki universitet arasında əməkdaşlıq əlaqələrinin qurulması, anlaşma memorandumunun imzalanması və hər iki universitetin tələbə-liderlərinin görüşü idi. Beynəlxalq əlaqələr şöbəsinin təşkil etdiyi görüşdə Malayziyanın Azərbaycandakı səfiri Dato Roslan Tan Sri Abdul Rahman, səfirin birinci katibi Azri Hazwani Abdul Aziz, səfirin tərcüməçisi Mövlanə Məmmədzadə və Perlis əyalətinin şahzadəsi və Malayziya Perlis Universitetinin rektoru Hrh Tuanku Syed Faizuddin Putra İbni Tuanku Syed Sirajuddin Jamalullail, universitetin akademik və administrativ işçiləri və tələbələri iştirak edirdilər. Xəzər Universitetindən rektor Dr. Hassan Niknafs, Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, Elmi işlər üzrə prorektor Dr. İradə Xəlilova, İctimaiyyətlə əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Beynəlxalq əlaqələr şöbəsinin heyəti və Xəzər Universitetinin Mühəndəslik və tətbiqi elmlər fakültəsinin akademik və administrativ işçi heyəti, müəllim və tələbələri iştirak edirdilər.

Giriş sözü ilə tədbiri Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova açdı, tədbirin gündəliyini nəzərə çatdırdı və qonaqları salamlamaq üçün sözü Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafsa verdi. Rektor qonaqları salamlayaraq, görüşün əhəmiyyətini vurğuladı və iki universitet arasında gələcək əməkdaşlıq planları haqqında danışdı. Sonra söz Perlis əyalətinin şahzadəsi və Malayziya Perlis Universitetinin rektoru Hrh Tuanku Syed Faizuddin Putra İbni Tuanku Syed Sirajuddin Jamalullailə verildi.

(ardı səh. 18-də)

On November 22, academic and administrative staff and students from University of Malaysia Perlis visited Nefchilar campus of Khazar University.

The main purposes of the event were to establish cooperation between the two universities, to sign a memorandum of understanding and to provide the meeting of the student-leaders of both universities. Mr. Dato' Roslan Tan Sri Abdul Rahman, Ambassador of Malaysia to Azerbaijan; Mrs. Azri Hazwani Abdul Aziz, the First Secretary of the Embassy; Movlana Mamedzadeh, the translator of the Ambassador; Mr. Hrh Tuanku Syed Faizuddin Putra Ibni Tuanku Syed Sirajuddin Jamalullail, prince of Perlis state and the rector of Perlis University; academic and administrative staff and students of the university participated at the meeting coordinated by the International Relations Department. The meeting was also attended by Dr. Hasan Niknafs, Rector of the University; Professor Mahammad Nuriyev, Vice Rector for Academic Affairs; Irada Khalilova, Vice Rector for Research; Alovsat Amirbeyli, Director for Public Relations and Media; personnel of the Department of International Relations, academic and administrative staff, faculty members and students of the Faculty of Engineering and Applied Sciences of Khazar University.

The event was opened by Turan Jafarova, Director of the International Relations Department. She reviewed the agenda of the event and gave the floor to Dr. Hasan Niknafs, Rector of Khazar University, to welcome the guests. The Rector welcomed the guests, highlighted the importance of the meeting and spoke about future cooperation plans between the two universities. Then the floor was given to Mr. Hrh Tuanku Syed Faizuddin Putra Ibni Tuanku Syed Sirajuddin Jamalullail, prince of Perlis state and rector of Perlis University.

(To be continued on page 18)

Rektor Xəzər Universitetinə ən xoş arzularını çatdırdı və tədbirin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirdi, həmçinin bu tədbirin iki universitetin inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini bildirdi. Malayziyanın Azərbaycandakı səfiri Dato Roslan Tan Sri Abdul Rahman səfirliyin Xəzər Universiteti ilə təhsil sahəsində olan əməkdaşlığı haqqında danışdı. Səfir Malayziya Perlis Universitetinin ölkənin mühəndislik sahəsində mütəxəssis hazırlayan aparıcı dövlət universitetlərindən biri olduğunu vurğulayaraq, bildirdi ki, gələcəkdə Malayziyanın digər ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulmasında dəstək göstərəcək.

Tədbirdə hər iki universitetin nümayəndələri universitetləri haqqında təqdimatlarla çıxış etdilər. Təqdimatlardan sonra fikir mübadiləsi aparmaq və hər iki tərəfdən olan iştirakçıların suallarını cavablandırmaq üçün sual-cavab sessiyası keçirildi. Müzakirədən sonra universitetlər arasında anlaşma memorandumu imzalandı.

Qısa çay fasiləsindən sonra tədbir iki universitetin tələbələrinin çıxışları ilə davam etdi. Perlis Universitetinin tələbələri bu səfərdən çox məmnun qaldıqlarını və yeni dostlar qazandıqlarını bildirdilər. Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsində təhsil alan yerli və əcnəbi tələbələr də öz təəssüratlarını bölüşdülər.

Tədbirin sonunda Xəzər Universitetindən Malayziya Perlis Universitetinin rəhbərliyinə və tələbələrinə xatirə hədiyyələri təqdim olundu. Qonaqlar da həmçinin Xəzər Universitetinin rəhbərliyinə xatirə hədiyyələrini təqdim etdilər.

Tədbirin yekunu olaraq, qonaqlar üçün Xəzər Universitetinin "Neftçilər" kampusunda ekskursiya təşkil olundu. Ekskursiya zamanı qonaqlar Xəzər Universitetinin kitabxanası, mədəniyyət mərkəzi, kompüter mərkəzləri və laboratoriyaları ilə tanış oldular.

Noyabrın 24-də tehsil-press.az saytı tədbir haqqında geniş xəbər yayımlamışdır:

http://tehsil-press.az/index.php?newsid=24701#
Kalibri

The rector of the Perlis University in Malaysia conveyed his best wishes to Khazar University and expressed his gratitude for the high level of organization of the event and noted that this event is of great importance for the development of the two universities. Mr. Dato' Roslan Tan Sri Abdul Rahman, Ambassador of Malaysia to Azerbaijan, spoke about the Embassy's cooperation with Khazar University in the field of education. The ambassador emphasized that Perlis University is one of the leading universities in Malaysia in the field of engineering, and noted that he will support the establishment of cooperation with other Malaysian universities in the future.

Representatives from both universities made presentations about their universities at the event. The presentations were followed by a question and answer session to exchange views and answer questions of participants from both universities. After the discussion, a memorandum of understanding was signed between the universities.

After a short tea break, the event continued with the speeches of students from two universities. The students from Perlis University in Malaysia expressed satisfaction with this visit and noted that thanks to it they made new friends. Local and international students of the Faculty of Engineering and Applied Sciences of Khazar University shared their impressions as well.

At the end of the event, memorable presents were given to the management and students of the University of Perlis at Khazar University. The guests also presented memorable gifts to the management of Khazar University.

Then an excursion was arranged for the guests at Khazar University's Neftchilar campus. During the excursion, guests were introduced to the library, cultural centre, computer centres and laboratories of Khazar University.

On November 24, tehsil-press.az Published Detailed News Coverage of the Event:

http://tehsil-press.az/index.php?newsid=24701#
Kalibri

KHAZAR UNIVERSITY

UNIVERSITI MALAYSIA PERLIS

XƏZƏR UNİVERSİTETİNİN XARİCİ TƏLƏBƏLƏRİ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ

THE EXCURSION OF THE FOREIGN STUDENTS TO THE NATIONAL MUSEUM OF HISTORY OF AZERBAIJAN

Noyabrın 25-də Xəzər Universitetinin I kurs xarici tələbələri Tarix və arxeologiya departamentının müdiri Roza Arazova və müəllimi Bayram Quliyevlə birlikdə Azərbaycan xalqının minilliklərlə ölçülən tarixini özündə əyani formada əks etdirən Milli Azərbaycan Tarixi Muzeyində oldular.

Muzeyə gedərkən müəllim B. Quliyev Bakı şəhəri və yol boyunca yerləşən tarixi abidələr haqqında tələbələrə məlumat verdi.

Muzeydə Azərbaycanın ta qədimdən bu günümüzə qədər tarixinin bir hissəsini əyani şəkildə görən tələbələr ekskursiyadan razı qaldılar. İbtidai icma quruluşuna dair arxeoloji tapıntılar, etnoqrafik əyani vəsaitlər və Xocalı faciəsi haqqında məlumatlar tələbələrin ən çox marağına səbəb oldu.

Tələbələr bu cür ekskursiyaların davamlı olmasını arzu etdilər.

The foreign students of Khazar University visited to the National Museum of History of Azerbaijan, where reflects visually the thousand-years history Azerbaijan nation with the head of the department of History and Archeology, Rose Arazova and senior lecturer of university, Bayram Quliyev on 25 Novembet.

Pre-excursion, senior lecturer informed the students about the city and the historical monuments of Baku.

Students, who saw visually a part of Azerbaijan history from Prehistory to Modern Age in museum, returned from excursion with thankfully and gratefully. Information about the archeological evidence belonging to the Prehistory, ethnographical visual aids and the tragedy of Khojaly were more interesting to the students.

There was an interesting to the students visiting to the museum that they wishes the excursion of these excursions.

SPE AZERBAIJAN SECTION ANNUAL REPORT RELEASED

On November 1, 2017, the annual report for 2016-2017 of Society of Petroleum Engineers (SPE International) Azerbaijan Section has been released.

Covering the issues regarding SPE Azerbaijan Section, in this annual report the "eiLink", research and development center of Khazar University, the students working closely with SPE Azerbaijan Section and the projects run by them have been elucidated. At the end of the report, the remarks of Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, on the collaboration between Khazar University and SPE Azerbaijan Section have been included.

We present the Review to our readers.

RESEARCH DEVELOPMENT & FACILITATION

SPE Azerbaijan has been actively working on promoting and facilitating research and studies in petroleum related topics among the students, young professionals and professors at local Universities. In 2015 SPE Azerbaijan started supporting Khazar University in building their research capability and participated in the establishment of the research and development center there called "eiLink" (Education to Industry Link). Khazar University's overriding goal is achieving research excellence across many fields and providing high-quality education.

The university has already started conducting studies and research for the industry in Geoscience and Reservoir Engineering disciplines under close mentorship and quality assurance from the industry professionals within SPE Azerbaijan. We see a great potential in this collaboration and looking to grow it in the near future.



SUPPORTING QUALITY PhD RESEARCH IN KHAZAR UNIVERSITY

SPE Azerbaijan has mentored and coached hundreds of students over the last decade. This newly adopted mentorship in Khazar University is distinguished by its individualistic approach in bringing up the talent and passion for developing and applying intellect.

Khazar University PhD students below are graduates of SPE Azerbaijan Young Talents and Mentorship Programs.

Izzat Shakhsenov has got his MSc degree in Applied Mathematics and Physics from Moscow Institute of Physics and Technology (MIPT). eiLink R&D researcher working thermodynamic, mechanical and electrical models for wettability of the porous medium.

Shahriyar Alkhasli has got his MSc degree in Petroleum/ Reservoir Engineering from The University of Tulsa, US. eiLink R&D researcher, currently involved in dynamic modelling of the fluid flow through the porous medium using Lattice-Boltzmann methods.

Elshan Aliyev has got his MSc degree in Petroleum Engineering from Colorado School of Mines (CSM), US. eiLink R&D researcher with strong rock physics expertise. He is currently working on modelling of the shale compaction trends for the South Caspian Basin.

As PhD students complete their projects, SPE Azerbaijan Research & Science Facilitation Group supports them with publications at prestigious scientific and engineering magazines. Perhaps, this is one of the most exciting and creative moments for a researcher when the outcomes of a long and hard work are being put in writing for the benefit of the whole World and especially those who will be conducting similar or relevant studies in the future.

«Khazar University has been providing quality higher education for the young generation over the last 25 years. We focus our efforts to create an educated workforce for the country be it in technical or humanitarian disciplines through adopted world class curriculum and favorable academic environment.

One of Khazar University's strong sides is open collaboration and flexibility in partnership with the single aim to raise the intellectual potential of our students and academic staff. The recent

initiative from SPE Azerbaijan to jointly establish a research and development center within Khazar University that would serve as a link between higher education and industry is a great model to successful development and creation of educated workforce.

To speak my mind, I'm already impressed and excited with the results so far given the short life of the research center. I am particularly proud with our PhD students delivering applicable and publishable results that meet international standards.»

Professor **Hamlet Isakhanli**, *the Founder of Khazar University*

SPE - AZƏRBAYCAN BÖLMƏSİNİN İLLİK İCMALINDA XƏZƏR UNİVERSİTETİ HAQQINDA

2017-ci il noyabrın 1-də Neft Mühəndisləri Cəmiyyətinin Azərbaycan bölməsinin (SPE-Azerbaijan Section) 2016-2017-ci illər üçün olan illik icmalı yayımlanmışdır. İllik icmalda SPE-Azərbaycan bölməsinə aid məsələlərin əhatə olunması ilə yanaşı, Xəzər Universitetinin "eiLink" adlı tədqiqat və inkişaf mərkəzi, SPE-Azərbaycan bölməsi ilə sıx əlaqə saxlayan tələbələr və onların həyata keçirdikləri layihələr barədə mövzular işıqlandırılmışdır.

İcmalın sonunda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının Xəzər Universiteti və SPE-Azərbaycan bölməsi arasındakı əməkdaşlıq haqqında fikirləri də yer almışdır.

MOVQE.AZ

XƏZƏR UNİVERSİTETİNİN PROFESSORU AZƏRBAYCANIN NEFT - QAZ SİYASƏTİNDƏN DANIŞDI

Noyabrın 16-da Movqe.az xəbər saytı Avropa ilə Azərbaycan arasında enerji siyasətinə həsr etdiyi "Avropanın Azərbaycana ehtiyacı artır" adlı məqalədə Xəzər Universitetinin professoru, neft-qaz geosiyasəti üzrə mütəxəssis Fuat Rəsulovun fikirlərinə yer verilmişdir.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://www.movqe.az/news/siyaset/109210.html

PROFESSOR OF KHAZAR UNIVERSITY SPOKE ABOUT AZERBAIJAN'S OIL AND GAS POLICY

Movqe.az news website released the views by Fuat Rasulov, professor of Khazar University, an expert in Oil and Gas Geopolitics, in the article "Europe's need for Azerbaijan is growing" related to Energy Policy between Europe and Azerbaijan.

The full text of an article is available through the link below:

http://www.movqe.az/news/siyaset/109210.html.

publika.az

PUBLİKA.AZ SAYTINDA VURĞUN ƏYYUBLA MÜSAHİBƏDƏN

2017-ci il oktyabrın 30-da publika.az saytında Vurğun Əyyubla geniş müsahibə dərc olunmuşdur. Müsahibənin Xəzər Universitetinə aid hissəsini oxucularımıza təqdim edirik.

– Vurğun bəy, siz müxalifətçisiniz?

– Buna şübhən var?

– Bəs Xəzər Universitetində işləyə-işləyə müxalifətçi olmaq çətin deyil?

– Mən hərəkatın ən qızğın dövrlərində - 1988-91-ci illərdə o vaxtkı Lenin adına Pedaqoji Universitetdə çalışırdım. Və heç vaxt işlədiyim tədris müəssisəsində siyasətlə məşğul olmamışam. Ümumiyyətlə, tədris müəssisəsini siyasətə qarışdırmağın qəti əleyhinəyəm. Universitetdən kənarda isə tələbə nə ilə məşğuldur, hansı siyasi dünyagörüşə tabedir, bu da onun öz işidir.

Студентов успеваемость учесть,
Программы всех предметов
Изучить прочесть,
Проверить тестов и экзаменов формат-
Людмилы Вячеславовны
«святой протекторат».
Изящный ум Людмилы
И Разии глубокой мысли взор
Сплелись давно в единый
Хазарской мысли хор.
Обе высоки и красивы,
Трудолюбивы и учтивы
Как две звезды наперебой
Свет отдают одна другой.

Л. М. Гамидова,
Старший преподаватель
Департамента Английского
Языка и Литературы

(*Продолжение следует*)

"XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ ÇAP OLUNUB

Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi Mələk Kərimovanın (doktorant) "İncəsənət psixoloji təsir vasitəsi kimi" adlı elmi məqaləsi Lənkəran Dövlət Universitetinin "Elmi xəbərlər" jurnalının Humanitar elmləri seriyasının 2017-ci il 1-ci cildində çap edilmişdir.

Məqalədə incəsənətə nə üçün ehtiyac duyulduğu, insanın hansı tələbatlarını ödədiyi, incəsənətin bir növü olan musiqinin insana olan psixoloji təsiri ilə əlaqədar suallara cavab axtarılmış və bu sahədə aparılan tədqiqatlardan bəhs edilərək, mövzu ilə bağlı müəllif tərəfindən təkliflər verilmişdir.

Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Mələk Kərimovanın (doktorant) "L.N. Tolstoy: İncəsənət haqqında" adlı elmi məqaləsi Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunun "Filologiya məsələləri" adlı jurnalının 12-ci sayında çap edilmişdir.

Məqalədə rus yazıçısı L.N.Tolstoyun incəsənətlə əlaqədar fikirlərinin təhlilinə yer verilmişdir. Tolstoy incəsənətin sosial hadisə olaraq əhəmiyyəti üzərində durmaqla yanaşı, incəsənətin təkcə həzz mahiyyətində olmamasının önəmini qeyd etmişdir.

***



Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi Validə Kərimovanın (doktorant) "Political discourse as a subject of political liguistics" adlı elmi məqaləsi Lənkəran Dövlət Universitetinin "Elmi xəbərlər" jurnalının Humanitar elmləri seriyasının 2017-ci il 1-ci cildində çap edilmişdir.

Məqalədə metaforanın rolundan əhatəli bəhs edilmişdir.Müəllif bir neçə yerli və xarici dilçinin bu sahədə apardıqları tədqiqatları, yazılmış məqalələri və fikirləri bir yerə cəmləyərək, metaforanın siyasi diskurs və siyasi dilçilikdəki rolunu analiz etmişdir.

Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi Validə Kərimovanın (doktorant) "Dil, oxu və öyrənmə maneələri: N.Çomskinin monoqrafiyaları əsasında" adlı elmi məqaləsi AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun "Filologiya məsələləri" adlı jurnalının 12-ci sayında çap edilmişdir.

Məqalədə N.Çomskinin elm dünyasında rezonansa səbəb olan dilçiliklə bağlı linqvistik fikirləri araşdırılmışdır. Təqdim edilən araşdırmada N.Çomskinin dilçilikdə böyük əks-səda doğuran fikirlərinə dair qısa və vacib məlumatlar verilmişdir.

TOPOQRAF - RƏSSAM TARİXÇİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

Oktyabrın 23-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin təşəbbüsü ilə Təhsil fakültəsi tarix müəllimliyi ixtisasının "Arxeologiyaya giriş" dərsində AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, elmi işçi, topoqraf-rəssam Vəfa Həsənova iştirak etdi. Dərs zamanı gələcək tədqiqatçılar üçün zəruri olan əməli bilik və bacarıqlar haqqında danışıldı.

Tələbələrə abidələrin topoqrafiyası, qazıntının stratiqrafiyası və tapıntıların təsvirinin yaradılması texnikası barədə məlumat verildi. Mütəxəssisin izahı və tədqimatı ilə tələbələr özləri əyani vəsaitlərdən istifadə etməklə, gil qabların təsvirlərini çəkdilər.

Dərs tətbiqi arxeologiya sahəsi üzrə tələbələrin məlumatlandırılması və vərdişlərə yiyələnmələri məqsədi daşıyırdı. Fənnin metodoloji və əyani səviyyə daşıması baxımından dərs tələbələrin marağına səbəb oldu.

XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ BEYNƏLXALQ ELMİ TƏDBİRLƏRDƏ

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Araz Aslanlı iki beynəlxalq elmi tədbirdə məruzə ilə çıxış etmişdir.

A. Aslanlı əvvəlcə 2017-ci il oktyabrın 23-24-də Türkiyə Respublikasının Bursa şəhərindəki Uludağ Universitetinin təşkil etdiyi "Dünya siyasətində böhranlar və dəyişikliklər" adlı beynəlxalq konqresdə "Suriya böhranı və Cənubi Qafqaz", oktyabrın 26-28-də Kocaeli Büyükşehir Bələdiyyəsi ilə Kocaeli Universitetinin birgə təşkil etdikləri "15 İyul və dövlət çevrilişləri" adlı beynəlxalq elmi simpoziumda isə "15 iyul dövlət çevrilişi təşəbbüsü və Azərbaycan" mövzularında məruzələrlə çıxış etmişdir.

A LECTURER OF KHAZAR UNIVERSITY IN INTERNATIONAL SCIENTIFIC EVENTS

Araz Aslanli, a lecturer of the Department of History and Archaeology of Khazar University delivered a report at the two international scientific events.

On October 23 and 24, 2017, Araz Aslanli made a report on *'The Syrian Crisis and the South Caucasus'* at the International Congress *'Crisis and Change in World Politics'*, organized by Uludag University, Bursa, Turkey and on 26-28 October, he delivered a speech on *'July 15, the coup d'état initiative and Azerbaijan'*, at the International Scientific Symposium *'July 15 and coup d'etat'*, jointly organized by the Kocaeli Metropolitan Municipality and the Kocaeli University.

KİM-İN ƏMƏKDAŞLARI "ÇİN CAZİBƏSİ" ADLI MUSİQİLİ TƏDBİRDƏ

Oktyabrın 24-də Azərbaycan Dillər Universitetində Konfutsi İnstitutunun təşkilatçılığı ilə "Çin cazibəsi" adlı musiqili tədbir keçirildi. Tədbirdə Shandong Normal Universitetinin Mədəniyyət və incəsənət truppası qədim çin musiqi alətlərində ifa, milli və etnik rəqslər və kong-fu döyüş sənətindən nümunələr təqdim etdi.

Tədbirdə Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin (KİM) əməkdaşları Samirə Orucova və Esmira Huseynova iştirak edirdilər.

EMPLOYEES OF THE LIBRARY - INFORMATION CENTRE AT A MUSICAL EVENT "CHINESE CHARM"

On October 24, a musical event called "Chinese charm" was held at the Azerbaijan University of Languages organized by Confucius Institute (Hanban). At the event, the Culture and Art Troupe of Shandong Normal University presented examples of ancient Chinese musical instruments, national and ethnic dances, kong-fu martial arts.

Samira Orujova and Esmira Huseynova , the employees of Khazar University Library and Information Center attended the event.

ERASMUS+ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ KONSORSİUM GÖRÜŞÜ

Oktyabrın 25-26-da İvana Cavaxişvili Tbilisi Dövlət Universitetində "Universitetdə miqrasiya təhsilinin təşviqi" Erasmus+ (PROMİG, 573554-EPP-1-2016-1-GE-EPPKA2-CBHE-JP) layihəsi çərçivəsində növbəti konsorsium görüşü keçirildi. Görüşdə Xəzər Universiteti İnkişaf Mərkəzinin layihə meneceri Ülkər Bayramova ilə yanaşı, Avropadan Alikante Universiteti (İspaniya), Oldenburg Universiteti (Almaniya), WUS Austria (Avstiriya) təşkilatı, Tabeş Universiteti (Əfqanıstan), Gürcüstan universitetlərinin nümayəndələri də iştirak edirdilər.

Görüşdə Tabeş Universitetində "İqtisadiyyat və miqrasiya təhsili" magistr ixtisasının yaradılması üçün görülən hazırlıqlar, layihənin keyfiyyətli idarə olunması və layihə qarşısında duran məsələlər müzakirə olundu, akademik heyət üçün təlimlər keçirildi.

NEXT CONSORTIUM MEETING WITHIN THE ERASMUS+ PROJECT

On October 25-26, the consequent consortium meeting within the framework of the Erasmus + project "Promoting Migration Education at the University" (PROMIG, 573554-EPP-1-2016-1-GE-EPPKA2-CBHE-JP) was held at Ivane Javakhishvili Tbilisi State University. The meeting was attended by Ulker Bayramova, project manager at Development Center of Khazar University and the representatives from University of Alicante (Spain), University of Oldenburg (Germany), WUS Austria organization (Austria), Tabesh University (Afghanistan) and also representatives from Georgian universities.

Within the framework of the meeting preparations for the establishment of the Master's degree in 'Economics and Migration Education' at Tabesh University, quality management of the project and issues faced by the project were discussed and trainings were held for the academic staff

"ÇİN GUŞƏSİ" LAYİHƏSİNİN YENİ PLANLARININ MÜZAKİRƏSİ

Oktyabrın 25-də Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzinin (KİM) "Çin guşəsi" layihəsinin yeni planlarının müzakirəsi keçirildi. Qarşıdakı aylarda Çin mədəniyyətinin və tarixinin təbliği ilə bağlı tədbirlərin keçirilməsi planlaşdırıldı.

Müzakirədə Çin dili müəllimi Li Ya, Xəzər Universitetinin Layihə koordinatoru Rima Məmmədova, KİM-in direktor müavini Aytac Misgərli və Kataloqlaşdırma bölməsinin müdiri Samirə Orucova iştirak etdilər.

A DISCUSSION OF NEW PLANS FOR "CHINA CORNER" PROJECT

On October 25, a discussion of new plans for "China corner" project was held at Khazar University Library Information Center (LIC). It's planned to hold events related to promotion of Chinese culture and literature in the months ahead.

Chinese language teacher Ms. Li Ya, Project Coordinator of Khazar University Ms. Rima Mammadova, Deputy Director of LIC Ms. Aytaj Misgarli and the Head of Cataloging Department Ms. Samira Orujova participated in the meeting.

MÜBADİLƏ İMKANLARI HAQQINDA MƏLUMAT SESSİYASI

Noyabrın 15-də Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsi tələbələr üçün mübadilə imkanları haqqında məlumat sessiyası keçirdi. Bu sessiyanı keçirməkdə əsas məqsəd tələbələr üçün yaradılan xaricdə təhsil imkanları, mübadilə proqramları haqqında ətraflı məlumat vermək və onlara bu imkanlardan necə yararlanmağın yollarını izah etmək idi.

Şöbənin koordinatoru Günay Fərzəliyeva sessiya zamanı Erasmus+ və Mevlana mübadilə proqramlarından bəhs etdi. O, bu günə qədər proqramlardan yararlanmış tələbələrdən də nümunə gətirərək, mübadilə proqramlarının üstünlüklərindən danışdı. Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova tələbələri proqramlara müraciət edərkən diqqət yetirməli olduqları məqamlar haqqında məlumatlandırdı.

Sessiya sual-cavab ilə yekunlaşdı.

INFO SESSION ABOUT EXCHANGE OPPORTUNITIES

On November 15, the International Affairs Office of Khazar University held an information session about exchange opportunities for students. The purpose of this session was to provide detailed information about studying abroad, exchange programs and explain how the students can benefit from these opportunities.

Gunay Farzaliyeva spoke about *Erasmus +* and *Mevlana* exchange programs and emphasized the advantages of exchange programs by providing examples of the students who were on an exchange. Turan Jafarova, the head of International Affairs Office, informed students about do's and don'ts while applying for the exchange programs. The event ended with a question and answer session.

TARİXÇİLƏR MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ FONDUNDA

Oktyabrın 27-də Xəzər Universitetinin tarix müəllimliyi ixtisası üzrə təhsil alan I kurs tələbələri Milli Azərbaycan Tarixi Muzeyində fond işinin təşkili haqqında "Milli Azərbaycan Tarixi Muzeyində fond işinin təşkili və əhəmiyyəti" adlı mühazirə dinlədilər. Muzeyin Arxeologiya elmi fond şöbəsinin müdiri t.ü.f.d. Nasir Quluzadənin oxuduğu və slaydlarla müşayiət olunan mühazirəni tələbələr maraqla dinlədilər.

Mühazirədə Arxeologiya fondunda mühafizə edilən kolleksiyaların tərkibi, arxeoloji materialların inventarizasiyası və pasportlaşdırılması, saxlanc yerlərinin tipləri, sanitar təmizləmə işlərinin əhəmiyyəti haqqında danışıldı. Həmçinin, təhlükəsizlik sistemlərinin vəziyyəti, texniki avadanlıq və qurğuların iş prinsipi, restavrasiya və konservasiya işlərinin gedişi haqqında geniş məlumat verildi. Sonda tələbələrə Arxeologiya fondu ilə əyani tanışlıq üçün ekskursiya təşkil edildi.

İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN ƏMƏKDAŞININ MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dekan müavini, Dr. Şəhriyar Muxtarovun "Does Urbanization Boost Pollution From Transport?" adlı məqaləsi Mendulu Universitetinin "Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis" jurnalının 2017-ci il 5-ci sayı, 65-ci buraxılışında çap edilmişdir. Sözü gedən jurnal SCOPUS (Elsevier B. V.) və Zoological Record (Thomson Scientific, Inc.) kimi nüfuzlu məlumat bazalarında indekslənir.

Məqalədə Azərbaycanda 1990-2014-cü illər dövrü üçün urbanizasiyanın, enerji istehlakı və iqtisadi inkişafın, avtomobil nəqliyyat sektorunun atmosfer çirklənməsinə təsirləri STIRPAT modeli çərçivəsində qiymətləndirilmişdir. Məqalə nəticələri urbanizasyanın çirklənmə üzərində ən böyük təsirə malik olduğunu ortaya çıxarmışdır. Tədqiqat nəticələri bir daha göstərmişdir ki, davamlı inkişafa ancaq ətraf mühit, sosial və iqtisadi amillər arasındakı tarazlığın qorunması ilə nail olmaq mümkündür.

Məqaləni bu link vasitəsilə oxumaq olar: *https://acta.mendelu.cz/65/5/1709/*

AN ARTICLE BY A MEMBER OF SCHOOL OF ECONOMICS AND MANAGEMENT PUBLISHED

A research paper entitled "Does Urbanization Boost Pollution from Transport?" developed by Shahriyar Mukhtarov, vice dean of the School of Economics and Management, has been published in the 5th number, 65th volume of the "Acta Universitatis Agriculturae et Silviculturae Mendelianae Brunensis" journal of Mendelu University in Brno. The journal is indexed in major databases as SCOPUS (Elsevier B. V.) and Zoological Record (Thomson Scientific, Inc.) and so on.

The study examines the impacts of urbanization, energy consumption and real GDP on atmospheric pollution from automobile transport in Azerbaijan in the STIRPAT framework. The results of study found the highest impact on pollution among the variables belongs to urbanization which is positive and statistically significant. The results also revealed that sustainable development can be reached only keeping the balance among environmental, social and economic factors.

The article can be read through this link: *https://acta.mendelu.cz/65/5/1709/*

NDU-NUN KOLLEKTİVİ ƏCƏMİ SEYRANGAHINDAKI MÜZEY KOMPLEKSDƏ

Oktyabrın 16-da NDU-nun kollektivi "Muzey günləri" çərçivəsində "Xan sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatun və Açıq Səma altında Muzey kompleksində olub. Açıq Səma altında Muzeydə olarkən məlumat verilib ki, xalqımızın zəngin tarixi-mədəni irsi memarlıq abidələri ilə bərabər, həm də daş abidələrdə yaşayır. Əcdadlarımızın yaratdıqları daş abidələr, xüsusilə Gəmiqaya rəsmləri ümumilikdə bəşəriyyətin tarixindən xəbər verir. Burada muxtar respublikanın ərazisindən tapılan müxtəlif dövrlərə aid daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr nümayiş olunur. Ekspozisiyadakı 450 maddi-mədəniyyət nümunəsi ulu Naxçıvanın daş yaddaşıdır.

Mömünə xatun türbəsi ilə tanışlıq zamanı qeyd olunub ki, Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan bu türbə 1186-cı ildə tikilib. Nəinki Azərbaycan, bütövlükdə İslam memarlığında ən uca və incə kompozisiyalı türbələrdən olan Mömünə xatun türbəsi yeraltı, yəni sərdabə və yerüstü hissələrdən ibarətdir. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə qalan abidənin baş tağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".

Xan sarayında məlumat verilib ki, saray Naxçıvan şəhərinin Xan dikində inşa olunub. Naxçıvan xanı I Kalbalı xan Kəngərliyə və onun varislərinə məxsus olan bu saray Azərbaycanın orta əsrlər memarlığının nadir incilərindən biridir. Xüsusi qaydada inşa edilən və xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi Xan sarayı orijinal memarlıq üslubu ilə seçilir. Muzeydə Naxçıvan xanlığının və Kəngərli nəslinin tarixi ilə bağlı nəşr olunmuş kitablar, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi, məişət əşyaları-misgərlik nümunələri, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimləri də nümayiş etdirilir. Muzeydəki eksponatların sayı hazırda 2000-i ötür.

FRANSA SƏFİRİ NDU-DA

Fransanın Azərbaycandakı səfiri Orelia Buşez oktyabrın 19-da NDU-da olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonağı salamlayıb. Səfir əvvəlcə İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinə gələrək, burada fəaliyyət göstərən kamera nəzarət sisteminin, server və texniki təminat otaqlarının işi ilə yaxından tanış olub. Media mərkəzində olan səfir universitet televiziyasında verilişlərin hazırlanması, onlayn dərslərin yazılması prosesini izləyib, çəkilişlərin aparıldığı studiyada olub. Universitet televiziyası üçün müsahibə verib.

Rektor rəhbərlik etdiyi ali təhsil ocağının strukturu, fakültələri, tədris olunan ixtisaslar və beynəlxalq əlaqələri haqqında geniş məlumat verib. Qeyd olunub ki, NDU TEMPUS və Erasmus+ beynəlxalq təhsil proqramları üzrə müxtəlif layihələrin fəal iştirakçılarından biridir və həmin layihələr çərçivəsində İspaniya, Avstriya, Polşa, Rumıniya, Çexiya və digər ölkələrin universitetləri ilə müəllim-tələbə mübadiləsini uğurla həyata keçirməkdədir. Rektor universitetin hər il Frankafoniya bayramı münasibətilə fransız dili ixtisası tələbələrinin keçirdiyi tədbirdən danışıb, yaxın gələcəkdə Fransa universitetləri ilə də təhsil sahəsində əlaqələrin qurulacağına ümidvar olduğunu bildirib.

Səfir NDU-da ənənəvi metodlarla yanaşı, müasir tədris üsullarının, informasiya-kommunikasiya texnologiyalarının tətbiqindən məmnunluğunu bildirib, iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın əhəmiyyətindən bəhs edib. Muxtar respublika haqqında yüksək təəssüratlarını bölüşən diplomat gələcək tərəfdaşlıq məsələlərinin müzakirəsi zamanı universitetlərarası əməkdaşlığın genişləndirilməsində birgə layihələrin əhəmiyyətindən danışıb.

Səadət Əliyeva,
NDU Mətbuat şöbəsinin müdiri

TƏLƏBƏLƏR ÜÇÜN MƏLUMATLANDIRICI SEMİNARLAR

Xəzər Universitetinin layihə koordinatoru və Əlilliyi olan Tələbələr üçün Mərkəzin koordinatoru Rima Məmmədova oktyabrın 27-də Təhsil fakültəsinin, oktyabrın 31-də Mühəndislik və tətbiqi elmlər fakültəsinin, Humanitar və sosial elmlər fakültəsinin, noyabrın 2-də İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün məlumatlandırıcı seminar keçirdi. Seminar zamanı tələbələrə Xəzər Universitetinin tərəfdaş kimi iştirak etdiyi Erasmus+ "*Advocacy Establishment for Students through Ombudsman Position*" (AESOP) layihəsi, layihə çərçivəsində görülmüş və planlaşdırılmış fəaliyyətlər haqqında məlumat verildi.

Seminarda, həmçinin, Xəzər Universitetində fəaliyyət göstərən Əlilliyi olan Tələbələr üçün Mərkəzin təqdimatı keçirildi və tələbələr mərkəzin təklif etdiyi xidmətlər haqqında da məlumatlandırıldılar.

INFORMATIVE SEMINARS HELD FOR STUDENTS

A range of informative seminars were held at Khazar University by Rima Mammadova, the University's Project Coordinator and the Coordinator of the Center for Students with Disabilities. The informative seminars were conducted for the students of the Education Faculty on October 27, School of Engineering and Applied Sciences and Faculty of Humanities and Social Sciences on October 31, School of Economics and Management on November 2. During the seminars the students were informed of Erasmus+ Project *(AESOP) "Advocacy Establishment for Students through Ombudsman Position" which has Khazar University as a partner,* as well as the activities implemented within the framework of the project and the ones planned to be carried out in the future.

In the seminar, a presentation on the Centre for the Students with Disabilities was delivered and the students had a chance to learn about the services offered by the center.

XƏZƏR UNİVERSİTETİNİN DOKTORANTININ MÜSAHİBƏSİ YAYIMLANDI

ORDU.AZ

INTERVIEW WITH KHAZAR UNIVERSITY DOCTORATE PUBLISHED

Noyabrın 14-də Ordu.az saytı Xəzər Universitetinin doktorantı Sana İmranla aparılmış müsahibəni yayımlamışdır. Müsahibədə Azərbaycanla Pakistan arasındakı iqtisadi və hərbi əməkdaşlıqdan bəhs olunur.

Müsahibəni bu link vasitəsilə oxumaq olar:

http://ordu.az/az/news/122934/atet-qarabag-ve-kesmir-munaqiselerinin-helline-yardim-etmelidir-sena-imran-musahibe

On November 14, Ordu.az published an interview with Khazar University doctorate Sana Imran. The interview is about economic and military cooperation between Azerbaijan and Pakistan.

You can read the full interview by following the link below:

http://ordu.az/az/news/122934/atet-qarabag-ve-kesmir-munaqiselerinin-helline-yardim-etmelidir-sena-imran-musahibe

XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ BAKIDA SORĞU KEÇİRDİLƏR

Oktyabrın 21-i və 22-də Xəzər Universitetinin tələbələri universitetlərarası qlobal yarışma olan "P2P: Facebook Qlobal Rəqəmsal Çağırış" layihəsi çərçivəsində Bakı şəhərində sorğu keçirdi. Sorğunun məqsədi insanların ekstremizm və zorakılığa qarşı fikirləri, nifrət nitqi ilə bağlı bilikləri və ekstremizmə qarşı mübarizə və sülhün yayılmasında iştirakları haqqında məlumat toplamaq idi. Sorğunun nəticələri komandaya əsas hədəf qruplarını müəyyən etməyə, onların yanaşmaları və reaksiyalarını öyrənməyə, bu hədəf qrupu üçün fəaliyyət növləri müəyyənləşdirməyə və kampaniyanın həyata keçirilməsi üçün plan hazırlamağa kömək edəcək.

Xəzər Universitetinin "P2P: Facebook Qlobal Rəqəmsal Çağırış" yarışında iştirakını Beynəlxalq əlaqələr ofisi koordinasiya edir.

Layihə və Xəzər Universitetinin komandası haqqında daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

http://www.khazar.org/en/news/article/2522

KHAZAR UNIVERSITY STUDENTS CONDUCT A SURVEY IN BAKU

On October 21-22, 2017, the students of Khazar University conducted a survey in Baku within the framework of the inter-university global competition "P2P: Facebook Global Digital Challenge". The purpose of the survey was to collect information about people's opinions about extremism and violence, their general knowledge on hate speech and their involvement in the fight against extremism and promoting peace. The results of the survey will help the team to identify their main target audience, find out their attitudes and reactions, explore possible activities for this group and prepare a plan for the implementation of the campaign.

Participation of Khazar University in "Peer to Peer: Facebook Global Digital Challenge" is coordinated by the International Affairs Office.

For more information about the project and the team of Khazar University:

http://www.khazar.org/en/news/article/2522.

(Students of Khazar University Participate in "Peer to Peer: Facebook Global Digital Challenge")

FİDAN HACIYEVA MUSİQİ MƏKTƏBİ TƏLƏBƏLƏRİNİN "XƏZƏR"DƏ KONSERTİ

CONCERT OF STUDENTS OF MUSIC SCHOOL NAMED AFTER FIDAN HAJIYEVA AT KHAZAR UNIVERSITY

Oktyabrın 26-da Xəzər Universitetinin Mərmər salonunda Fidan Hacıyeva adına Musiqi Məktəbi tələbələrinin konserti keçirildi. Konsertdə universitetin rəhbərliyi, əməkdaşları və tələbələri iştirak edirdilər.

Konsertdə fortepianonun müşayiəti ilə (Şahin Yəhyazadə) məktəbin müəllimi Arzu Qurbanova, tələbələr - Leyla Qürbətli, Orxan Cabbarov, Ariz Nəbiyev, Mətləb Ağayev, Rəna Cəfərzadə, Nəzrin Həsənzadə, Bob Petrie və başqaları Azərbaycan və Avropa bəstəkarlarının vokal əsərlərini ifa etdilər. Konsertin sonunda xalq artisti Fidan Hacıyeva ilə tələbələrinin birgə ifasında Müslüm Maqomayevin "Azərbaycan" mahnısı səsləndi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, tələbələrin çıxışını yüksək qiymətləndirdi və onlara uğurlar arzuladı.

Sonda universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova Fidan Hacıyeva adına Musiqi Məktəbinin Xəzər Universitetinin təşəkkürnaməsi ilə təltif olunduğunu bildirdi və təşəkkürnaməni xalq artistinə təqdim etdi.

On October 26, 2017, a concert of students of music school named after Fidan Haciyeva was held at Marble Hall, Khazar University. The administration, staff and students of the university attended the concert. Arzu Qurbanova, the school instructor, Leyla Qurbanli, Orkhan Cabbarov, Aziz Nabiyev, Metleb Agayev, Rena Cayarzade, Bob Petue and other students performed vocals of Azerbaijan and European composers, accompanied by forte-piano at the concert. Muslim Maqomayev`s work "Azerbaijan" was performed by People's Artist Fidan Hajiyeva and her students at the end of the concert. Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of Its Board of Directors and Trustees highly appreciated students' performance and wished them success in his speech.

At the end, Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts, honored teacher said that the Music School named after Fidan Gadjieva had been awarded a Certificate of Appreciation by Khazar University and presented it to the People's Artist.

XƏZƏR UNİVERSİTETİ
BAKI
KHAZAR UNIVERSIT

"XƏZƏR"İN GƏNC PSİXOLOQLARI TƏLƏBƏ MÜBADİLƏSİ PROQRAMINDA

Xəzər Universitetinin psixologiya ixtisası üzrə təhsil alan tələbələri, "Gənc psixoloqlar" İctimai Birliyinin üzvləri -Aida Nəcəfova, Aysel Əfəndiyeva, Elnurə İsazadə, Aytac Hafizova, Cəmilə Məhərrəmova, Ləman Quliyeva Gənc psixoloqların ilk beynəlxalq mübadilə proqramının ikinci mərhələsi çərçivəsində oktyabrın 22-dən 28-dək İşık Universitetinin qonağı oldular.

İstanbulda Beşiktaş bələdiyyəsinin sədri Murat Hazinedarla görüşdə iki ölkənin gənc psixoloqları arasında həyata keçirilən mübadilə proqramı haqqında bələdiyyə sədrinə məlumat verildi. Proqramın çox faydalı və əhəmiyyətli olduğunu vurğulayan Murat Hazinedar bu cür layihələrin davamlı keçirilməsinin məqsədəuyğun olduğunu söyləyədi. Sonra Beşiktaş bələdiyyəsində psixoloqlar üçün yaradılan şəraitdən və psixoloqların cəmiyyətin psixi sağlamlığında vacib rolu olması haqqında danışıldı. Həmçinin, "Türk Psixoloji Öyrencileri Çalışma Grubu"nun təşkil etdiyi seminar və qrup işlərində mədəni-dünyəvi dəyərlər və psixoloqların rolu haqqında müzakirələr aparıldı.

RƏQSİ İLƏ MƏŞHURLAŞAN HƏKİM MƏZUNUMUZ MÜSAHİBƏ VERDİ

Xəzər Universitetinin məzunu, Moskva şəhərindəki 68 nömrəli xəstəxananın doğum evində çalışan Ruslan Xanbutayevin hamilə qadınla müalicə məqsəd ilə rəqsi sosial şəbəkələrdə geniş yayıldıqdan sonra həkim böyük populyarlıq qazanmışdır. 2017-ci il noyabrın 2-də AzVision.az xəbər saytı ondan müsahibə almışdır.

Müsahibəni bu linklər vasitəsilə oxumaq və videoçarxı izləmək olar:

https://azvision.az/news/129905/reqsi-ile-meshurlasan-azerbaycanli-hekim-hicabli-xanimlar-dogusa-erleri-ile-girir-musahibe.html

http://www.dia.az/8/159458-reqsi-ile-meshhurlashan-azerbaycanli-hekim.html

INTERVIEW OF KHAZAR UNIVERSITY GRADUATE FAMED FOR HIS DANCE

A graduate of Khazar University, doctor Ruslan Khanbutaev, who works at a delivery unit of hospital No. 68 in Moscow city, has gained great popularity after his dance with a pregnant woman for recupiration purposes widely spread in social networks. On November 2, 2017, AzVision.az news site took an interview of him.

To read the interview and watch the video click the links below:

https://azvision.az/news/129905/reqsi-ile-meshurlasan-azerbaycanli-hekim-hicabli-xanimlar-dogusa-erleri-ile-girir-musahibe.html

http://www.dia.az/8/159458-reqsi-ile-meshhurlashan-azerbaycanli-hekim.html

"İSLAM FƏLSƏFƏSİNDƏ ELM-DİN MÜNASİBƏTİ" MÖVZUSUNDA SEMİNAR

Oktyabrın 31-də Xəzər Universiteti Dillər və mədəniyyətlər departamenti tərəfindən "İslam fəlsəfəsində elm-din münasibəti" mövzusunda seminar təşkil edildi.

Seminarda Türkiyə Respublikası Sivas şəhərindəki Cumhuriyyət Universitetinin dosenti Dr. Hasan Özalp İslam fəlsəfəsində elm və din əlaqələri haqqında çıxış etdi. Xəzər Universitetinin fəlsəfə müəllimi, fəlsəfə doktoru Mail Yaqub da bu mövzuya toxunaraq, maraqlı fikirlər söylədi.

Seminarda Dillər və mədəniyətlər departamentinin əməkdaşları - ilah.ü.f.d., dosent Elnurə Əzizova, fil.ü.f.d. Zivər Hüseynli Baylan, Ləman Ələsgərova və universitetin tələbələri iştirak edirdilər.

A SEMINAR ORGANIZED ON "THE RELATIONSHIP BETWEEN RELIGION AND SCIENCE IN ISLAMIC PHILOSOPHY"

On October 31, a seminar on "The relationship between Religion and Science in Islamic Philosophy" was organized by the Department of Languages and Civilizations, Khazar University.

Dr. Hasan Ozalp, an Associate Professor of 'Cumhuriyet University' in Sivas, Turkey, spoke about the connection between religion and science. Mail Yagubov, Ph.D in Philosophy, an instructor of Philosophy at Khazar University also came up with interesting ideas concerning the subject.

The staff members of the Department of Languages and Civilizations, such as Elnura Azizova, Associate Professor and Ph.D in Religious Studies and Theology, Ziver Huseynli Baylan, Ph.D in Philology, Leman Aleskerova and the university sudents participated in the seminar.

XƏZƏR UNİVERSİTETİNİN KEÇMİŞ TƏLƏBƏSİNİN MÜSAHİBƏSİ YAYIMLANDI

Noyabrın 6-da Xəzər Universitetinin keçmiş tələbəsi (məzun olmamışdır), hazırda aktrisa və teleaparıcı kimi fəaliyyət göstərən Mələk Heydərova azerbaycaninfo.az saytına müsahibə vermişdir.

Müsahibəni bu link vasitəsilə oxumaq olar:

http://azerbaycaninfo.az/sou-biznes/15887-azerbaycanin-beren-saati-melek-heyderova-danishdi-ailemi-yaradiciligima-qurban-vermerem.html.

INTERVIEW WITH KHAZAR UNIVERSITY'S FORMER STUDENT RELEASED

On November 6, 2017, Melek Heyderova, an ex-student of Khazar University (not graduated), currently acting as an actress and TV journalist, gave an interview to azerbaycaninfo.az website.

An interview can be read through the link below:

http://azerbaycaninfo.az/sou-biznes/15887-azerbaycanin-beren-saati-melek-heyderova-danishdi-ailemi-yaradiciligima-qurban-vermerem.html

"İMTAHAN STRESİNİN ARADAN QALDIRILMASI YOLLARI" MÖVZUSUNDA SEMİNAR

Oktyabrın 31-də Xəzər Universiteti Psixologiya Departamenti və Xəzər Psixoloji Xidmət Mərkəzi imtahanların yaxınlaşması ilə əlaqədar "İmtahan stresinin aradan qaldırılması yolları" mövzusunda seminar təşkil etdilər. Seminarda Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova tələbələrə imtahan öncəsi, imtahanda və imtahandan sonrakı həyəcanların aradan qaldırılması yolları ilə əlaqədar tövsiyələr verdi.

İmtanan həyəcanına təsir edən faktorlar arasında çalışma intizamının zəifliyi, vaxtı idarə edə bilməmə, imtahanla əlaqədar funksional olmayan düşüncələr və s. ilə əlaqədar ətraflı müzakirələr aparılaraq, tələbələrin suallarına cavab verildi. Tələbələr bu cür seminarlara ehtiyac olduğunu qeyd etdilər. Xəzər Psixoloji Xidmət Mərkəzi tələbələrin sosial, psixoloji, mənəvi inkişafını dəstəkləyici tədbirləri mütəmadi keçirməyi nəzərdə tutur.

"XƏZƏR"İN TƏLƏBƏLƏRİ VƏ MÜƏLLİMLƏRİ 8-Cİ AZƏRBAYCAN BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİNDƏ

Noyabrın 16-da Xəzər Uiversiteti Coğrafiya və Ətraf mühit departamentinin 1-ci və 4-cü kurs coğrafiya müəllimliyi ixtisasının və İqtisadiyyat və menecment fakültəsinin 1-ci kurs tələbələri və müəllimləri Bakı Ekspo Mərkəzində "Caspian Ecology" 8-ci Azərbaycan Beynəlxalq Ətraf Mühit Sərgisində oldular.

Sərgidə tələbələr GIZ alman şirkətinin stendində sual-cavabda iştirak edərək, müxtəlif hədiyyələr qazandılar.

LONDONUN MİDDLESEX UNİVERSİTETİNDƏ PAWER LAYİHƏSİ ÜZRƏ TƏLİMLƏR KEÇİRİLDİ

Oktyabrın 28-dən noyabrın 3-dək Xəzər Universitetinin əməkdaşları Böyük Britaniyanın Middlesex Universitetində PAWER layihəsi çərçivəsində keçirilən təlimdə iştirak etdilər.

L'Aquila Universitetinin (İtaliya) koordinasiya etdiyi POWER (Regionlararası Mobilliyin və Keçid Uyğunluğunun Yolunun Açılması, Keyfiyyət və Keçid Bərabərliyi) layihəsinin iştirakçılarından biri də Xəzər Universitetidir. Layihə kreditayırma və qiymətləndirmə sistemlərini uyğunlaşdırmaqla AB və tərəfdaş ölkələr arasında əlaqələri təşviq etmək və dəstəkləmək məqsədi daşıyır. Layihə, həmçinin, milli təlimçiləri hazırlamağı nəzərdə tutur.

Gürcüstan, Macarıstan, İtaliya, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Rusiya, Tacikistan və Özbəkistan universitetlərinin nümayəndələri təlimdə bir araya gəldilər. Tədbirdə Xəzər Universitetini İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Turan Cəfərova təmsil edirdilər.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI İLƏ BAĞLI XƏBƏR EURAS.EXPRESS - DƏ

Xəzər Universiteti əməkdaşlarının PAWER layihəsi çərçivəsində keçirilən təlimdə iştirak etməsi haqqında xəbər Avrasiya Akademiyasının elektron bülleteni EURAS.Express-də yayımlanmışdır:

http://bulten.jettsms.com/mailing/da515ea4-4d41-44cd-85d8-014e22e9a069.html

PAWER PROJECT TRAINING AT MIDDLESEX UNIVERSITY IN LONDON

On October 28-November 3, staff members of Khazar University participated in a training that took place within the PAWER project at Middlesex University in London, UK.

Khazar University is one of the universities participating in the PAWER (Paving the Way to Interregional Mobility and Ensuring Relevance, Quality and Equity of Access) project coordinated by the University of L'Aquila (Italy). The project aims at promoting and supporting mobility between EU and partner countries by harmonizing the credit allocation and grading system. This project also involves the preparation of national trainers.

The training brought together representatives of universities from Georgia, Hungary, Italy, Kazakhstan, Kyrgyzstan, Mongolia, Russia, Tajikistan, and Uzbekistan. Development Director Ms. Raziya Isayeva and Director of International Affairs Office Ms. Turan Jafarova represented Khazar University during the training.

NEWS ABOUT STAFF MEMBERS OF KHAZAR UNIVERSITY ON EURAS.EXPRESS

News about participation of staff members of Khazar Univerity at the training within the framework of PAWER project was published on EURAS.Express, electronic bulletin of Eurasian Academy:

http://bulten.jettsms.com/mailing/da515ea4-4d41-44cd-85d8-014e22e9a069.html



XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİ XƏZƏR TEXNİKİ KONFRANSI VƏ SƏRGİSİNDƏ

Noyabrın 1-dən 3-dək Bakıda keçirlən Neft Mühəndisləri Cəmiyyətinin (SPE) Xəzər Texniki Konfransı və Sərgisində Xəzər Universitetinin müəllim və tələbələri iştirak etdilər. Neft mühəndisliyi departamentinin müdiri dosent Qəşəm Zeynalovun və həmin departamentin doktorantı Şəhriyar Alxaslının həmmüəllif olduqları "Outcrop Analogue Study of Deformation Bands and Their Impact on Rock Properties of the Productive Series in South Caspian Basin" və Kimya mühəndisliyi departamentinin müəllimi Dr. Rəsul Moradi, Neft mühəndisliyi departamentinin doktorantı Masoud Mehrizadə və Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan əvəzi Dr. Hassan Niknafsın həmmüəllif olduqları "Produced Water Treatment by Using Nano-fibrous Polyvinylidene Fluoride Membrane in Air Gap Membrane Distillation" mövzusunda məruzələrin təqdimatı oldu. Həmin məruzələrin geniş məqalələri Neft Mühəndisliyi Cəmiyyətinin "OnePetro" məlumat sistemində çap olunmuşdur.

Məqalələri bu linklər vasitəsilə oxumaq olar:

https://www.onepetro.org/conference-paper/SPE-189051-MS?sort=&start=0&q=rasoul+ moradi &from_year=&peer_reviewed=&published_between =&fromSearchResults=true&to_year=&rows=10#

https://www.onepetro.org/conference-paper/SPE-189018-MS?sort=&start=0&q=gasham+ zeynalov&from_year=&peer_reviewed=&published_ between=&fromSearchResults=true&to_year=&rows =10#

KHAZAR UNIVERSITY INSTRUCTORS AND STUDENTS ATTENDED THE CASPIAN TECHNICAL CONFERENCE AND EXHIBITION

On 1-3 November, the SPE Annual Caspian Technical Conference and Exhibition was held in Fairmont Hotel, Baku, Azerbaijan. The faculty and students of Khazar University participated in this scientific event by presenting two papers.

Dr. Rasoul Moradi, Mr. Masoud Mehrizade from Department of Chemical Engineering and Dr. Hassan Niknafs, acting dean of the School of Engineering and Applied Sciences, presented their new work entitled "Produced Water Treatment by Using Nano-fibrous Polyvinylidene Fluoride Membrane in Air Gap Membrane Distillation" and Dr. Gasham Zeynalov and Mr. Shahriyar Alkhasli, a PhD student from Department of Petroleum Engineering shared their work with the audience which is about "Outcrop Analogue Study of Deformation Bands and Their Impact on Rock Properties of the Productive Series in South Caspian Basin". The papers are published in OnePetro publications and could be tracked through the following links:

">https://www.onepetro.org/conference-paper/SPE-189051-MS?sort=&start=0&q=rasoul+ moradi &from_year=&peer_reviewed=&published_between= &fromSearchResults=true&to_year=&rows=10#

https://www.onepetro.org/conference-paper/SPE-189018-MS?sort=&start=0&q=gasham+ zeynalov&from_year=&peer_reviewed=&published_ between=&fromSearchResults=true&to_year=&rows =10#

XƏZƏR UNİVERSİTETİNDƏ SÜLH RƏMZİ FLEŞMOBU KEÇİRİLDİ

Noyabrın 10-da Xəzər Universitetinin "The Chain" ("Zəncir") komandası universitetin həyətində "Sülh rəmzi fleşmobu" keçirdilər. Fleşmobun məqsədi kampaniyanı tanıtmaq, ictimaiyyətin diqqətini cəlb etmək və sülh üçün atılan addımları daha da artırmaq və nifrət dolu çıxışlara qarşı mübarizə aparmaq üçün başqalarını da sülh zəncirinə dəvət etmək idi. Tədbir Xəzər Universitetinin həm yerli və xarici tələbələri, həm də əməkdaşları tərəfindən müsbət qarşılandı.

"The Chain" ("Zəncir") virtual zəmində nifrət dolu çıxışlarla mübarizə aparmaq üçün Xəzər Universitetinin müxtəlif xalqları və mədəniyyətləri təmsil edən tələbələrindən ibarət komanda tərəfindən yaradılmış sosial mediya kampaniyasıdır. Kampaniya, universitetin Feysbuk tərəfindən dəstəklənən və EdVenture Partners tərəfindən idarə edilən "P2P: Feysbuk Qlobal Rəqəmsal Çağırış" layihəsində iştirakı ilə həyata keçirilir. (Xəzər Universitetinin tələbələri "P2P: Feysbuk Qlobal Rəqəmsal Çağırış"da iştirak edirlər).

Layihə və Xəzər Universitetinin komandası haqqında daha ətraflı məlumat üçün buraya daxil olun:

http://www.khazar.org/en/news/article/2522

PEACE SYMBOL FLASH MOB HELD AT KHAZAR UNIVERSITY

On November 10, Khazar University's team "The Chain" held a "Peace Symbol Flash mob" in the university yard. The aim of the flash mob was to raise the awareness of the campaign, draw the public attention and invite others to join the peace chain to further increase the steps taken for peace and fight hate-speech. The event was well received by both local and international students and staff members of Khazar University.

"The Chain" is a social media campaign, designed by the team of students from a diverse background and culture of Khazar University to fight hate-speech online. The campaign is carried out within the university's participation in the project "Peer to Peer: Facebook Global Digital Challenge" which is sponsored by Facebook and managed by EdVenture Partners. (Students of Khazar University Participate in "Peer to Peer: Facebook Global Digital Challenge").

For more information about the project and the team of Khazar University:

http://www.khazar.org/en/news/article/2522

XƏZƏR UNİVERSİTETİNDƏ DÜNYA VAHİD SAĞLAMLIQ GÜNÜNƏ HƏSR EDİLMİŞ TƏDBİR

"WORLD ONE HEALTH" DAY EVENT HELD AT KHAZAR UNIVERSITY

Noyabrın 3-də Xəzər Universitetində Dünya Vahid Sağlamlıq Gününə həsr edilmiş tədbir keçirildi. Tədbirdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş epidemioloqu və Azərbaycan Tibb Universitetinin epidemiologiya kafedrasının müdiri professor İbadulla Ağayev, Azərbaycan Tibb Universitetinin elmi işçisi Dr.Hafiz Hacıyev, Milli Onkologiya Mərkəzinin beynəlxalq əlaqələr və innovasiyalar departamentinin müdiri Dr.Elturan İsmayılov, Xəzər Universitetinin rektoru Dr.Hassan Niknafs, Elmi işlər üzrə prorektor dosent İradə Xəlilova, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru doktorant Mələk Kərimova, doktorant Validə Kərimova, bioloji elmlər departamentinin elmi işçisi Dr. Babək Əlibəyov, departamentin PhD tələbələri, Təhsil fakültəsinin biologiya, kimya və biologiya, coğrafiya və ətraf mühit müəllimliyi ixtisası tələbələri iştirak edirdilər.

Bioloji elmlər departamentinin doktorantı Hava Adlı "Dünya Vahid Sağlamlıq Komissiyasının missiyası, tarixi, məqsədi və qlobal strateji planları" mövzusunda çıxış etdi. Sonra Dr.Babək Əlibəyov "Antimikrobial rezidentlik və dünya üzrə onun yaratdığı problemlər" mövzusunda məlumat verdi. Coğrafiya və ətraf mühit departamentinin 3-cü kurs tələbəsi Xanım Adışirinli "Ətraf mühit, problemlər və həllər" mövzusunda çıxış etdi.

On November 3, Khazar University hold an event to mark the World One Health Day. On this event presenters and participants were from divers sectors and disciplines. Professor Ibadulla Aghayev, Chief epidemiologist of the Ministry of Health of the Republic of Azerbaijan and Head of the Department of Epidemiology of the Azerbaijan Medical University, Dr.Hafiz Hajiyev, research fellow from Azerbaijan Medical University, Dr Elturan Ismauilov, Director of the International Relations and Innovation Department of the National Oncology Center of Azerbaijan, Dr Hassan Niknafs, rector of Khazar University, assoc.prof. Irada Khalilova, Vice-Rector for Research, Ph.D. Candidate Melek Karimova, Director of Khazar Psychological Service Center, Valida Karimova, PhD student, Dr. Babek Alibeyov, Research Fellow of Biological Sciences Department, PhD students of biological sciences department, and students of Biology, Chemistry and Biology, Geography and Environmental sciences of the School of Education were participated in this event.

Doctoral student of the Biological Sciences Department Hawa Adli gave a prezentation about the World One Health Comission, its mission, history, goals and strategic plan in the world". Then Dr. Babek Alibeyov talked about "the antimicrobial residency and the problems that has created around the world".

Baytar həkimi və doktorant Mehdi Zakeri "Vektorlu patogenlər və infeksiyaların keçiricilərlərlə yayılması və onların qarşısının alınması yolları" mövzusunda çıxış etdi və bu problemin həllinin Avropanın Qida Təhlükəsizliyi Təşkilatı (*European Food Safety Authority –EFSA*), Avropanın Xəstəliyə Qarşı Mübarizə və İdarəetmə Mərkəzi (*European Centre for Disease Prevention and Control –ECDPC*) və Dünya Sağlamlıq Təşkilatı (*World Health Organization –WHO*) tərəfindən dəstəkləndiyini vurğuladı.

Tədbir maraqlı müzakirələrlə keçdi. Sonda professor İbadulla Ağayev keçirilən tədbirin mühüm əhəmiyyətini qeyd etdi. O, tələbələrə və gənc tədqiqatçılara innovativ yanaşmaları inkişaf etdirməklə, patogenləri vaxtında aşkar etməyi və qarşısını almağı tövsiyə etdi. Gələcəkdə bu sahənin daha da işıqlandırılması, tədqiqat işlərinin aparılması, seminar və konfransların təşkil edilməsi planlaşdırıldı.

A 3rd year student at the Department of Geography and Environmental Sciences Khanum Adishirinli gave a prezentation about "the environment, its role on healthy life of living organizms, problems and solutions".

Veterinary doctor and PhD student Mehdi Zakeri, gave a prezentation on "vector pathogens and infections, how they can be disseminated and prevented", and talked about the role of European Food Safety Authority (EFSA), European Center for Disease Prevention and Control (European Center for Disease Prevention and Control) EFSA) and the World Health Organization (WHO).

Event went with the interesting discussions. In conclusion, Professor Ibadulla Aghayev noted about importance of this event. He gave some recommendations and valuable advices to students and young researchers on developing innovative approaches to detect, predict and prevent the pathogens. It was planned to further cover this area, conduct research, organize seminars and conferences.

DİLLƏR VƏ MƏDƏNİYYƏTLƏR DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI BEYNƏLXALQ SİMPOZİUMDA

Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin koordinatoru dosent Zivər Hüseynli-Baylan və departamentin dosenti i.f.d. Elnurə Əzizova Türkiyənin Kırşehir şəhərində yerləşən Ahi Evran Universitetinin oktyabrın 5-dən 7-dək təşkil etdiyi III Beynəlxalq Ahilik simpoziumunda iştirak etdilər. Dosent Zivər Hüseynli-Baylan "Farsca yazılmış Ahilik mətnləri: Fütüvvətnamə və Risalə-yi Civanmərdan" (*Persian manuscripts about Futuvva: Futuvvatnama and Risala Civanmardan*), dosent Elnurə Əzizova "Peşələr müqəddəsdir: İlk dövr "Kəsb" ədəbiyyatının Fütüvvət qurumlarının təşəkkülünə təsir edən dini hərəkətvericilər" (*Occupations are Sacred: The Religious Dynamics Constitute the Basis for the Early al-Futuvva Organizations within the context of the Early "al-Kasb" Literature*) adlı məruzə ilə çıxış etdilər.

XƏZƏR UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ SİMPOZİUM DÜNYA VAHİD SAĞLAMLIQ KOMİSSİYASININ RƏSMİ VEB VƏ FEYSBUK SƏHİFƏLƏRİNDƏ

Noyabrın 3-də Xəzər Universitetində Dünya Vahid Sağlamlıq Gününə həsr edilmiş Simpozium Dünya Vahid Sağlamlıq Komissiyasının rəsmi veb və Feysbuk səhifələrində də işıqlandırılmışdır. Qısaca olaraq, Dünya Vahid Sağlamlıq Komissiyası insanlar, ev heyvanları, çöl həyatı, bitkilər və ümumilikdə, ətraf mühitin sağlamlığına nail olunmasına həsr olunmuş qlobal yönümlü bir təşkilatdır. Bu təşkilat ilk dəfə 1997-ci ilin aprelində Amerikanın Tibbi Veterinarlar Assosiasiyasının bir qrup alimləri tərəfindən yaradılmışdır. 2009-cu ildə təşkilatın qərargahı Vaşinqton şəhərinə köçürülmüş, 2010-cu ildə isə Amerikanın Ayova Dövlət Universiteti Dünya Vahid Sağlamlıq Komissiyasının əsas tərəfdaşına çevrilmişdir. Hazırda dünyanın əksər ölkələrindən Dünya Vahid Sağ-lamlıq Komissiyasına qoşulmuş çoxlu sayda üzvlər vardır. Xəzər Universitetində noyabrın 3-də keçirilmiş Dünya Vahid Sağlamlıq Simpoziumu ilə paralel olaraq, eyni anda dünyanın 35 ölkəsində 101 tədbir və simpoziumlar təşkil edilmişdi.

Keçirilən tədbirlərin xəritəsini bu link vasitəsilə izləmək olar:

https://www.facebook.com/onehealthday/?hc_ref=ARSZ9w8678rGhavF5FnrkC7AsBOBzt6f9VdDq7khh595GB17jxoAdHION9JsgsdzEL0&fref=nf

THE SYMPOSIUM HELD AT KHAZAR UNIVERSITY IS ON THE OFFICIAL WEB AND FACEBOOK PAGES OF THE WORLD ONE HEALTH COMMISION

The Symposium dedicated to the World One Health Day held at Khazar University on November 3, is now on the official web and facebook pages of the World One Health Commision. Briefly, the World One Health Commission is a global-oriented organization dedicated to maintain health of people, pets, wildlife, plants, and the whole environment. The organization was first established in Apri, 1997 by a group of scientists of the American Medical Veterinary Association. In 2009, the organization's headquarters moved to Washington, and in 2010, the Iowa State University became the key partner of the World One Health Commission. Currently, there are many new members of the World One Health Commission from all over the world. In parallel with the World One Health Symposium held on November 3, 2017 at Khazar University, 101 events and symposiums were held in 35 countries around the world at the same time.

A map of events can be viewed through the link below:

https://www.facebook.com/onehealthday/?hc_ref=ARSZ9w8678rGhavF5FnrkC7AsBOBzt6f9VdDq7khh595GB17jxoAdHION9JsgsdzEL0&fref=nf

XƏZƏR UNİVERSİTETİNDƏ AESOP ERASMUS+ LAYİHƏSİNİN MONİTORİNQİ KEÇİRİLDİ

Noyabrın 13-də Xəzər Universitetində Azərbaycanda Milli Erasmus+ Ofisi tərəfindən *"Advocacy Establishment for Students through Ombudsman Position"* (AESOP) Erasmus+ layihəsinin monitorinqi keçirildi. Görüşdə Azərbaycanda Milli Erasmus+ Ofisinin nümayəndələri, Xəzər Universitetinin layihə koordinatoru Rima Məmmədova, Tələbə qəbulu və məlumat şöbəsinin müdiri Lamiyə Namazova, İngilis dili və ədəbiyyatı departamenti müdirinin müavini Eynur Mehdiyev, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Əlaqələr Ofisinin rəhbəri Röya Səfərova, Naxçıvan Universitetinin layihə koordinatoru Elmira Hüseynova və Gəncə Dövlət Universitetinin Beynəlxalq Əlaqələr Ofisinin direktoru Ruslan Məmmədov iştirak etdilər.

Görüş zamanı layihə koordinatoru Rima Məmmədova AESOP Erasmus+ layihəsi və Xəzər Universitetinin layihə çərçivəsində həyata keçirdiyi fəaliyyətlər haqqında geniş məlumat verdi. Həmçinin, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Universiteti və Gəncə Dövlət Universitetinin nümayəndələri də layihə çərçivəsində indiyədək gördükləri işlər haqqında hesabat verdilər.

Görüş universitetlər tərəfindən hesabatlar təqdim olunduqdan sonra müzakirələrlə davam etdi.

MONITORING OF AESOP ERASMUS + PROJECT AT KHAZAR UNIVERSITY

On November 13, the monitoring of Erasmus + project "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) was conducted at Khazar University by the National Erasmus + Office in Azerbaijan. The meeting was attended by the representatives of the National Erasmus + Office in Azerbaijan, Rima Mammadova, a Project Manager of Khazar University, Lamiya Namazova, Head of Student Admission Office, Eynur Mehdiyev, vice-chair of English language and Literature department, Roya Safarova, Head of International Relations Office of Nakhichivan State University, Elmira Huseynova, Project coordinator of Nakhichivan University and Ruslan Mammadov, Head of International Relations Office of Ganja State University.

During the meeting, Rima Mammadova, a project coordinator, gave detailed information about AESOP Erasmus + project and activities carried out by Khazar University within the project. The representatives of Nakhichivan State University, Nakhichivan University and Ganja State University reported on their activities as well.

Some important issues related to the project were discussed after the reports were delivered by the universities.

XALQ ARTİSTİNİN YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏDBİR

Noyabrın 4-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında xalq artisti, filarmoniyanın mahnı və rəqs ansamblının bədii rəhbəri və quruluşçusu Cəmilə Bayramovanın yubileyi münasibətilə tədbir keçirildi. Tədbirdən əvvəl görkəmli rəqqasənin həyat və yaradıcılığına aid slayd-şou nümayiş etdirildi, elm və mədəniyyət xadimlərinin videotəbrikləri səsləndirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı öz təbrikində Cəmilə Bayramovanın yüksək sənətindən danışmaqla yanaşı, universitetdə müəllim kimi çalışdığı illərdə səmərəli fəaliyyətindən də söz açdı.

Tədbir xalq artistinin fəaliyyəti ərzində çalışdığı kollektivlərin çıxışlarından təşkil olunmuşdu. Bakı Xoreoqrafiya Akademiyasının balet qrupu, Azərbaycan Dövlət Rəqs Ansamblı, "Cəngi", "Cücələrim" və "Dəcəllər" ansamblları, Xəzər Universitetinin Mahnı və Rəqs Ansamblı məharətli çıxışları ilə yubilyarı təbrik etdilər.

Yubiley tədbirində elan olundu ki, Cəmilə Bayramova Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Fəxri mədəniyyət işçisi" adına layiq görülüb.



XƏZƏR UNİVERSİTETİNDƏ "THE CHAIN" MƏLUMAT SESSİYASİ

"THE CHAIN" INFO SESSION DAY AT KHAZAR UNIVERSITY

Noyabrın 13-də "The Chain" (Zəncir) komandası Xəzər Universiteti Beynəlxalq Əlaqələr Şöbəsi tərəfindən təşkil olunan Beynəlxalq Təhsil Həftəsi çərçivəsində universitetdə bir günlük məlumat sessiyası keçirdi. Bu sessiya zamanı komanda üzvləri üzərində işlədikləri sosial media kampaniyası haqqında universitetin işçi heyətini və tələbələri məlumatlandırdılar. Əsas məqsəd kampaniyanın əhatə dairəsini genişləndirmək, daha çox insanı məlumatlandırmaq və onları dəstək olmağa çağırmaq idi.

Bu tədbir zamanı təxminən 100-ə yaxın şəxs kampaniyaya maraq göstərdi və layihənin brend fincanını qazanmaq şansını əldə etmək üçün qeydiyyatdan keçdi. Eyni zamanda, iştirakçıların tədbir zamanı *#iampartofthechain* həştəqi ilə şəkil çəkdirib, öz sosial media hesablarında paylaşması da əsas komponentlərdən biri idi. Layihə komandası bu həştəqdən istifadə edərək, daha çox insana çatmaq və kampaniyanın əhatəsini qloballaşdırmaq istəyir.

"The Chain" Xəzər Universitetinin tələbələri tərəfindən onlayn nifrət nitqi ilə mübarizə aparmaq üçün yaradılmış sosial media kampaniyasıdır. Kampaniya universitetin Facebook tərəfindən maliyyələşdirilən və EdVenture Partners şirkəti tərəfindən idarə olunan "P2P: Facebook Qlobal Rəqəmsal Çağırış" layihəsindəki iştirakı çərçivəsində həyata keçirilir.

On November 13, the team "The Chain" organized a one-day info session at Khazar University within the International Education Week, organized by the International Affairs Office. During the info session, the team members gave information to staff and students about their campaign. The main purpose was to enhance the scope of the campaign, inform more people and invite others to support the campaign.

The event was well-attended by the staff members and students of the university – about one hundred people signed up for a chance to win one of the campaign branded cups. During the event, the attendees were encouraged to take a photo with #iampartofthechain hashtag and share it on their social media accounts. This will help the team to reach a bigger audience and make the scope of the campaign global.

"The Chain" is a social media campaign designed by the students of Khazar University to fight hate-speech online. The campaign is carried out within the university's participation in the "P2P: Facebook Global Digital Challenge" project sponsored by Facebook and managed by EdVenture Partners.

Participation of Khazar University in "Peer to Peer: Facebook Global Digital Challenge" is coordinated by the International Affairs Office.

TARİXÇİ MƏZUNLARLA GÖRÜŞ KEÇİRİLDİ

Noyabrın 15-də Xəzər Universiteti Təhsil fakültəsinin tarix müəllimliyi ixtisasının 2012-2016-cı il məzunları onlara doğma olan Tarix və arxeologiya departamentində oldular. Departamentin müdiri Roza Arazova və onlara vaxtilə dərs demiş Orxan Zamanovla keçmiş təhsil illərini yada salıb, səmimi söhbət etdilər.

Məzunlardan bəziləri artıq müəllim kimi fəaliyyət göstərir, bəziləri isə təhsillərini magistratura pilləsində davam etdirirlər. Görüş xoş təəssüratla başa çatdı.

MEETING WITH HISTORIAN GRADUATES

On November 15, the 2012-2016 graduates, majoring in History Studies within the School of Education, Khazar University, visited their favourite History and Archeology Department. They had a talk with Rosa Arazova, head of the department, reminiscing past memories. It was a pleasant coincidence that Orkhan Zamanov, who had been their previous lecturer, was in the department.

Some of the graduates are currently working as teachers and some of them are pursuing their Master's degree.

DİLLƏR VƏ MƏDƏNİYYƏTLƏR DEPARTAMENTİNİN ƏMƏKDAŞI BEYNƏLXALQ SİMPOZİUMDA

Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin dosenti i.f.d. Elnurə Əzizova İstanbul Universitetinin təşkilatçılığı ilə noyabrın 16-dan 18-dək keçirilmiş "Ali din təhsili" adlı beynəlxalq konqresdə iştirak etdi. Dosent Əzizova konqresdə "Dünyəvi dövlətdə alternativ ali din təhsili modelləri: Post-Sovet Azərbaycanında ali din təhsili qurumlarının inkişaf prosesi" (*Alternative higher religious education models in secular state: Historical development of higher religious education institutions in post-soviet Azerbaijan*) adlı məruzə ilə çıxış etdi.

XARİCDƏ TƏHSİL HAQQINDA MƏLUMATLANDIRICI SESSİYA

Noyabrın 16-da Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təşkil olunan Beynəlxalq Təhsil Həftəsi (13-17 noyabr) çərçivəsində növbəti tədbir keçirildi. Tədbirdə EducationUSA və British Council təşkilatlarının nümayəndələri iştirak edirdilər.

Bu sessiyasını keçirməkdə əsas məqsəd ABŞ və Böyük Britaniyada tələbələr üçün mövcud olan təhsil imkanları, mübadilə proqramları haqqında ətraflı məlumat vermək və yaranan sualları cavablandırmaq idi.

Məlumat sessiyası iki hissədən ibarət oldu. Birinci hissədə EducationUSA təşkilatının nümayəndəsi Ramilə Verdiyeva Amerika universitetlərinə qəbul prosesi, tələblər və digər vacib məqamlar haqqında danışdı.

Məlumat sessiyasının ikinci hissəsində isə British Council təşkilatının nümayəndəsi Cavid Quliyev Böyük Britaniyada təhsil haqqında ümumi məlumat verdi və təşkilat tərəfindən həyata keçirilən və Britaniya universitetlərinə qəbul zamanı əsas şərtlərdən biri kimi tələb olunan IELTS beynəlxalq dil imtahanı haqqında geniş danışdı. Nümayəndə, həmçinin, təşkilatın həyata keçirdiyi digər professional imtahanlar haqqında da məlumat verdi.

Tədbirin sonunda hər iki təşkilatın təbliğat materialları paylanıldı. Tədbir sual-cavab sessiyası ilə sona çatdı.

INFORMATIVE SESSION ABOUT EDUCATION ABROAD

The next event within the framework of the International Education Week (November 13-17), organized by the International Affairs Office, was held on November 16, with the participation of representatives of Education USA and British Council Azerbaijan.

The main purpose of the session was to provide detailed information about full-time and exchange programs available to students in the USA and the UK, and to answer students' questions.

The information session consisted of two parts. In the first part, Ramile Verdiyeva, Education USA Adviser, talked about the process of admission to universities in the USA, admission requirements, financial aid, and other important issues.

During the second part of the information session, Javid Guliyev, Exams Coordinator at British Council Azerbaijan, gave general information about education in the UK and spoke extensively about IELTS, the international English language testing system, which is conducted by the organization and it is the key requirement for admission to the UK universities. The representative gave some information about some other professional examinations held by the organization.

Promotional materials of both organizations were distributed at the end. The event ended with a Q&A session.

COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİ MƏKTƏBƏ KİTAB HƏDİYYƏ ETDİ

Noyabrın 18-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin əməkdaşları Ramana qəsəbəsində yerləşən 78 saylı orta məktəbdə oldular və şagirdlərə "Təhsil sistemində fəlakət riskinin azaldilmasi" kitabını hədiyyə etdilər. Qeyd edək ki, kitab UNİCEF və departament əməkdaşları tərəfindən birgə hazırlanmışdır.

GEOGRAPHY AND ENVIRONMENT DEPARTMENT PRESENTED A BOOK TO A SCHOOL

On November 18, staff of Geography and Environment Department visited school No. 78 located in Ramana settlement and presented a book titled "Reducing the Risk of Disaster in Education System". Note that, the book was jointly prepared by UNICEF and the department staff.

SIU NORWEGIAN CENTRE FOR INTERNATIONAL COOPERATION IN EDUCATION

"XƏZƏR" DAHA BİR LAYİHƏDƏ TƏRƏFDAŞ OLDU

Xəzər Universiteti bu il qazandığı daha bir layihədə tərəfdaş oldu. Layihəni Norveç Təhsildə Beynəlxalq Əməkdaşlıq Mərkəzi (*Norwegian Centre for International Cooperation in Education - SIU*) dəstəkləyir.

Layihə mədəniyyətlərarası münasibətlər barədədir və Norveçin əsas koordinatorluğu ilə üç Cənubi Qafqaz ölkəsində həyata keçiriləcək. Layihə çərçivəsində bu ölkələrin tələbələri və əməkdaşları yaz məktəblərində iştirak etmək üçün Tbilisiyə və Osloya səfər edəcəklər.

Qeyd edək ki, bu layihənin müzakirəsi 2016-cı ilin yayında Tbilisidə keçirilmişdi.

KHAZAR UNIVERSITY AS A PROJECT PARTNER

Khazar University has become a partner in another project. The project is supported by the Norwegian Centre for International Cooperation in Education – SIU.

The project is about intercultural communication and it will be coordinated by Norway and implemented in 3 South Caucasian countries. The instructors and employees of these countries will travel to Tbilisi and Oslo for spring schools within the framework of the project.

It should be noted that the discussion of this project was held in Tbilisi last summer.

WORLD ANTIBIOTICS AWARENESS WEEK

Shalala Hasanova

Laboratory assistant
Centre for Cell Pathology Research
Department of Biological Sciences
Khazar University

From the early 20th century to the present day, scientists have discovered a myriad of antibiotics almost for every disease touched off by bacteria. The current unstoppable development needs more attention to be paid before these remedies are consumed. We should particularly be aware of the detrimental effects of antibiotics before using them.

Antibiotics have been used for defeating bacterial infections and there is no point in denying the obvious fact that the mentioned treatment has caused serious harm to human body. Thus, using antibiotics without doctor's prescription or prescribing them incorrectly is more dangerous than fighting alone against the disease without drugs. Therefore, the World Health Organization, whose mission is to build a better and healthier future for the humanity all over the globe, arranged the first event on that issue entitled "***World Antibiotics Awareness Week***" and brought it to public attention. The main aim of the event was to increase awareness and understanding of misuse of antibiotics. The World Antibiotics Awareness Week was held on 16-22 November, 2015 and this year the *Food and Agriculture Organization of the United Nations*, the *World Health Organization* and the *World Organization for Animal Health* jointly brought this issue to the table on 13-17 November.

According to Centers for Disease Control and Prevention, the bacteria tend to become resistant to antibiotics when they are taken inappropriately or misused. Over 700.000 people die every year from drug-resistant infections including bacterial infections resistant to antibiotics and annually over 240 million kilograms of antibiotics are used all over the world. Due to the facts mentioned, the issue has become really important and we should all be aware of the side effects of antibiotics before taking them.

A more common side effect of antibiotics is diarrhea, especially, in children. Diarrhea is one of the main causes of inappropriate use of antibiotics and this is the second best known reason of child death. Moreover, the unwelcomed activity can lead to the eradication of gut bacterial flora and the most common signs of this process is vomiting, nausea, diarrhea, abdominal pain. A human has very sensitive gut flora and it is willing to get damaged very easily. The misuse of antibiotics tend to kill supportive bacteria in our gut and this unwelcome effect is even powerful to launch the process of turning the helpful bacteria into an evil slayer. Antibiotics can simply help harmful genes to pass through the new generation of bacteria. The study shows that these little victims can carry forward their resistance genes to their neighbours. The Immune system malfunction is one of the minor but important side effects of antibiotics which leads to misinterpretation of the enemies by our health guardian. Therefore, this procedure is open to trigger the side effects of antibiotics. Overuse of antibiotics can cause allergic reactions like skin problems, swelling of face and throat, respiration problems, etc.

The best solution to reduce the side effects of antibiotics is decreasing the amount of unnecessary antibiotics consumption and we should not forget to do our best to take a better care of our body, which needs to become one of our core missions.

VALTER ŞNAFSIN MACƏRASI

(hekayə)

Gi de Mopassan
Fransa
(1850 – 1893)

İşğalçı ordunun sıralarında Fransa torpağına soxulandan bəri Valter Şnafs özünü yer üzünün ən bədbəxt adamı hesab edirdi.

Gonbul kişiydi Valter Şnafs, güclə yeriyirdi, tez-tez də təngənəfəs olurdu; yastıdaban ayaqları lap onun atasını yandırırdı. Olmazın əziyyəti verirdi ona. Əslində çox düz və xeyirxah adam idi.

Dörd uşaq atasıydı; uşaqlarını da olduqca çox istəyirdi. Cavan, sarışın bir qadınla evlənmişdi. Arvadının qayğıkeşliyi, nəvazişləri, öpüşləri hələ də hər axşamı yadına düşürdü. Axşamlar tez yatmağı, səhərlər gec durmağı sevirdi; yaman da astagəl idi, dadlı-dadlı xörəkləri yavaş-yavaş yeməyi, pivəxanada pivəni məzələnə-məzələnə içməyi çox xoşlayırdı. Onun fikrincə, bu dünyada yaxşı nə varsa, insan məhv olanda onunla birlikdə o da məhv olub gedir. Qılınclara, tapançalara, tüfənglərə, toplara xüsusilə süngülərə ürəyində dərin kini, nifrəti vardı.

Axı, bu süngü zəhrimarı işlətmək üçün adamda bir təpər olmalıdır; bu təpər də Valter Şnafsda yox idi ki, heç olmasa, öz yekə qarnını qoruya biləydi.

Gecələr xorhaxorla yatan yoldaşlarının böyründə, şinelinə bürünüb, quru torpaq üstündə uzananda həmişə yaxın qohumları, ev-eşik yadına düşərdi, onu gözləyən fəlakət barəsində uzun-uzadı götür-qoy edərdi. Arabir ağlayardı da.

Neçə ay idi Valter Şnafsın günü beləcə qorxu-hürkü, dərd-kədər içində keçirdi.

Bir gün Valter Şnafsı bir dəstə əsgərlə kəşfiyyata göndərdilər. Kəşfiyyatçılar ölkənin bu yerlərində nələr baş verdiyini öyrənməli və dərhal hissəyə qayıtmalıydılar. Onlar gəlib bir kəndə çatdılar. Kənddə sakitlik idi, almanlara qarşı əks hücuma keçməyə, müqavimət göstərməyə hazırlıqdan heç bir əsər-əlamət yox idi.

Alman kəşfiyyatçıları dərin yarğanların arasındakı kiçik bir vadiyə enəndə şiddətli atışma dayandırdı onları. Balaca bir meşədən qəflətən çıxan bir qrup Fransız partizanı almanlardan düz iyirmisini o dünyalıq elədi. Süngülü, tüfəngli partizanların həmləsi alman kəşfiyyatçıları üçün tamamilə gözlənilməz oldu.

Bu vuruşmada Valter Şnafs o qədər çaşbaş qalmış, başını o qədər itirmişdi ki, qaçıb

gizlənmək heç ağlına da gəlmirdi. Birdən səfeh bir fikir çuğladı onu: dəstədən ayrılıb qaçmaq. Anına yadına düşəndə ki, onun qaçışı keçi sürüsü kimi hoppana-hoppana yüyürən arıq, çevik fransızlarla müqaisədə lap tısbağa yerişinə oxşayır, bu fikrindən vaz keçdi. Bu vaxt təxminən altı addımlığında kol-kos basmış, quru yarpaqla örtülmüş iri bir xəndək gözünə sataşdı. Xəndəyin dərinliyinə, dayazlığına baxmadı, körpüdən çaya cuman təki ora tullandı. Kol-kos onun ağırlığı altında yay kimi enib-qalxdı. Elə bil Valter Şnafs yaylı çarpayının üstündə oturmuşdu.

Hələ bir müddət atışma, qışqırıq, inilti səsləri eşidildi. Sonra səs-küy zəiflədi, nəhayət, tamamilə eşidilməz oldu.

Birdən əks tərəfdə nəsə tərpəndi. Qorxudan Şnafsın ürəyi qopdu. Bu, balaca bir quş idi, budağa qonarkən qurumuş yarpaqlara toxunub, onları tərpətmişdi. Vahimədən bir saata kimi özünə gələ bilmədi; nəbzi tez-tez vurdu.

Qaranlıq qovuşmuşdu. Alman kəşfiyyatçısı hələ də nə edəcəyi barədə götür-qoy edirdi. Nə çarə qılsın başına? Aqibəti necə olacaq onun? Gedib öz ordu hissəsini tapsınmı? Necə etsin? Hara getsin? Yox, öz hissəsinə qayıtmaq fikri yox idi onun. Müharibənin başlandığı ilk gündən indiyəcən gördüyü kədərli, qorxunc və cansıxıcı ordu həyatına bir daha qayıtmaq axmaqlıq olardı. Doğrusu indi çox əfəlləşmişdi, çətin tab gətirə bilərdi hərbi qayda-qanuna.

Bəs onda neyləsin? Axı, müharibənin axırına kimi bu dərədə oturub gözləməli deyildi! Bircə bu zəhrimar yemək məsələsi olmasaydı, elə burdaca qalıb, davanın axırını gözləmək onu bir o qədər də narahat etməzdi. Ancaq yemək lazım idi; özü də hər gün.

Beləliklə, Valter silahlı, hərbi geyimdə, onu müdafiə edə biləcək adamlardan uzaqda, düşmən ərazisində tək-tənha qalmışdı. Bunları götür-qoy etdikcə, Valter Şnafsın canına vicvicə düşürdü.

Birdən onun başına belə bir fikir gəldi. "Əsir düşsəm, nə yaxşı olardı!" Fransızlara əsir düşmək istəyi onun ürəyini yerindən oynatdı. Əsir düşmək! Bəli, əsir düşsə, ölümdən yaxası qurtarar, azdan-çoxdan yeməyi, yatmağa yeri olar, güllədən, qılınc zərbəsindən uzaq, yaxşı mühafizə olunan rahat bir həbsxanada sığınmaq imkanı olardı. Əsir düşmək! Nə gözəl arzudur! Qəfildən ağlına gəlmiş bu planı həyata keçirməkdə Valter Şnafsın qərarı qəti idi. O öz-özünə dedi: "Mütləq gedib fransızlara əsir düşəcəyəm".

Düşündüyü planı lap indicə həyata keçirmək qətiyyətilə ayağa qalxdı. Lakin bu vaxt gözlənilmədən başqa bir qorxu onu çuğladı. Bir müddət hərəkətsiz yerindəcə donub qaldı.

Təslim olmaq üçün hara getsin? Necə getsin? Hansı tərəfə getsin? Həlak olmuş yoldaşlarının surəti, onların dəhşətli və vahiməli sir-sifətləri gözünün qabağından çəkilmirdi. O, şiş uclu dəbilqəsilə özünü kənd yerində daha təhlükəli vəziyyətə sala bilərdi.

Birdən fransız kəndlilərinə rast gəldi, bəs onda? Həmin kəndlilər alman kəşfiyyatçısını, müdafiəsiz alman əsgərini yəqin ki, it kimi gəbərdərlər. Yaba, külüng, oraq, bel ilə öldürərlər onu! Qiymə-qiymə doğrayıb kotlet, ya da sıyıq düzəldərlər ondan.

Bəs fransız partizanlarına rast gəlsə? Qayda-qanun, intizam tanımayan həmin o quduz partizanlar əyləncə xatirinə, məşğuliyyət üçün güllələyərlər onu. Valter Şnafs divara söykənildiyini, on iki tüfəng lüləsinin ona tuşlandığını xəyalına gətirdi.

Bəs fransız ordusunun lap özünə rast gəlsə necə olacaq? Ordunun önündə gedən dəstələr onu kəşfiyyatçı hesab edib, diri tutmaq üçün başının üstündən güllə atacaqlar. Valter Şnafsa birdən elə gəlirdi ki, o, kolluqda gizlənmiş fransız əsgərlərinin qeyri-müntəzəm atəş açmalarını eşidir, özünü döyüş meydanının ortasında ayaq üstə dayanmış görür; görür ki, güllələr onun bədənini dəlik-deşik eləyir, o, ağır-ağır torpağa enir.

Valter Şnafs ümidsiz halda oturdu. O, yaxşı başa düşürdü ki, çıxılmaz vəziyyətə düşüb.

Artıq gecə idi; lal və qaranlıq bir gecə. Alman kəşfiyyatçısı daha tərpənmirdi. Zülmət və qaranlıqda eşitdiyi hər naməlum və yüngül səsdən diksinirdi.

Nəhayətsiz, uzun görünən qəmli-ələmli saatlar ötüb keçdi, dan yeri tədricən ağarmağa başladı. Səhərin açılması Valter Şnafsa böyük rahatlıq gətirdi. Rahatlıq onun bütün əzablarına nüfuz edib, nəvazişlə oxşadı, canına dinclik gətirdi,ürəyini sakitləşdirdi, gözlərini yumub, onu dərin yuxuya qərq etdi.

O, yuxudan ayılanda, demək olar ki, günorta idi. Günün bu çağında çöllərin sakitliyini poza biləcək nə bir səs-küy, nə də cüzi bir hənirti eşidilirdi. Valter Şnafs gördü ki, acından lap ürəyi axır.

Kolbasanı, əsgər kolbasasını gözünün qabağına gətirdi. Ağzı sulandı, mədə ağrısı əziyyət verdi ona.

Ayağa qalxdı, bir neçə addım atdı. Lakin heysiz ayaqları sözünə baxmadı, yenidən oturdu, bir yana çıxmaq üçün xeyli götür-qoy elədi, fikirləşdi, baş sındırdı. İki-üç saat bu lənətə gəlmiş "hə, yox"-ları ; "mümkündür, qeyri-mümkündür"-ləri ölçüb biçdi. Qərarını tez-tez dəyişir, tərəddüddən yaxa qurtara bilmirdi.

Axır ki, başına "yaxındakı keçidi güdmək" kimi ağıllı və sərfəli bir fikir gəldi. Silahı, heç bir qorxulu əmək aləti olmayan tənha bir kəndli bu yaxından keçsə, onun qarşısına qaçıb, yaxşı-yaxşı başa salar ki, fransızlara təslim olmaq istəyir.

Ona xəyanət edə biləcək şiş uclu dəbilqəsini bu niyyətlə çıxartdı, gizləndiyi yarğandan böyük ehtiyyatla başını yavaş-yavaş qaldırdı.

Yoldan tək keçən adam gözünə dəymirdi. Sol tərəfdə, xiyabanın arxasında balaca qülləli böyük bir qəsr görünürdü.

Şnafs dərin iztirab içində axşama qədər gözlədi. Bu müddət ərzində onun eşitdikləri daxilindəki inilti̇lər, şikayətlər, gördükləri isə ətrafda uçuşan qarğalar oldu.

Yenə şər qarışdı; az sonra yerin səthinə qatı zülmət çökdü.

Valter Şnafs yarğanın düz ortasında tirtap uzanmışdı, bütün ac adamlar kimi, o da narahatlıq və dəhşət içində yuxuya getdi.

Yuxudan ayılanda düz onun başı üstündə şəfəq qızarırdı. O, əvvəlcə kəndi müşahidə elədi. Kənd dünənkitək yenə də kimsəsiz görünürdü; elə bil burda insan yaşamırdı. Valter Şnafsın canına yeni bir qorxu düşdü - acından ölmək qorxusu. Gözünün qabağına gətirdi ki, onun meyidi, bax, beləcə, elə bu yarğanın dibində, gözləri yumulu halda, arxası üstə uzanıb. Xırdaca həşəratlar, hər cür qurd quş, onun meyidinə tərəf sürünür, ya uçuşub gəlir, onu yeməyə başlayır. Qurd-quş, həşərat hər tərəfədən onun cəsədinə daraşır, soyuq dərisini deşmək üçün arabir paltarının altına da dürtülürlər. Budur, iri bir qarğa onun gözlərini dindikləyir.

Valter Şnafs az qalırdı ki, dəli olsun; ona elə gəlirdi ki, zəiflikdən ağlını itirir; bir yana gedib çıxa bilmək ümidi azalırdı. Elə istəyirdi ki, qüvvəsini toplayıb ayağa qalxsın və kəndə tərəf getsin, bir də gördü, üç nəfər kəndli çiynində yaba tarlaya sarı gedir. Gizləndiyi yarğanda yenidən sərilib uzandı.

Göylər yer üzünə yenidən qara pərdə çəkəndə Şnafs yarğandan yavaş-yavaş çıxıb, qəsrə tərəf üz qoydu. O qorxa-qorxa, əyilə-əyilə, ürəyi əsə-əsə yeriyirdi. Valter Şnafs qəsrə getməyi kəndə girməkdən üstün tuturdu. Nədənsə kəndə girmək ona pələng yuvasına girmək qədər dəhşətli və vahiməli görünürdü.

Qəsrin pəncərələrindən işıq gəlirdi. Onlardan biri hətta açıq idi. Açıq pəncərədən

qızardılmış ət iyi Şnafsın burnuna dolur, oradan da qarnının dərinliklərinə enirdi. Kəşfiyyatçının xoş qoxulu, onu qarşısıalınmaz qüvvə ilə özünə cəlb eləyən qızardılmış ətdən yeyə biləcəyinə ümidi yox idi.

Birdən, heç özü də fikirləşmədən, başında dəbilqə, açıq pəncərənin önündə dayandı.

İçəridə səkkiz qulluqçu böyük bir stol arxasında şam edirdi. Qulluqçu qadınlardan birinin nəzəri pəncərənin ağzında dayanmış Valter Şnafsa sataşdı. Qadının əlindən stəkanı yerə düşdü; matı-qutu qurumuşdu; ağzı açıq halda gözlərini düşməndən çəkə bilmirdi. Qalan yeddi qulluqçu da nəzərlərini birinci qadının baxdığı səmtə yönəltdilər və alman əsgərini gördülər.

- Cənablar! Almanlar qəsrə hücum edirlər...

Səkkiz qulluqçu müxtəlif avazla, eyni zamanda və bir ağızdan qışqırışdılar. Fəryad və imdad dolu qışqırıqdan sonra bərk çaxnaşma düşdü, bir-birini itələyən kim, çaşbaş halda qapıya tərəf qaçan kim. Stullar aşır, kişilər qadınları yıxıb üstündən keçirdilər. İki dəqiqə ərzində bütün qəsr boşaldı. Üstü yemək-içməklə dolu stolu tərk edib getdilər. Heyrətlənmiş Valter Şnafs hələ də pəncərənin ağzında dururdu.

Bir anlıq tərəddüddən sonra kəşfiyyatçı pəncərədən aşıb, mətbəxə girdi və yeməklə dolu boşqablara tərəf tələsdi. Acından qızdırmalı adamlar kimi əsim-əsim əsirdi. Üstəlik də qorxu hissi onun ürəyini üzürdü. O bir müddət ətrafı dinlədi. Ona elə gəlirdi ki, qəsrin bütün binası lərzəyə gəlib, titrəyir. Alman əsgəri yuxarı mərtəbədə qapıların çırpılmasını, döşəmədə tələsən ayaq səsələrini yaxşı eşidirdi. Sonra bütün tarappatarıp, səs-küy kəsildi; böyük qəsrə sanki qəbir sükutu çökdü.

Valter Şnafs boşqablardan birini qabağına çəkib yeməyə başladı. Çuval kimi açılmış ağzına ət tikələrini ikiəlli tullayırdı. Ət parçaları boğazından keçərkən onu şişirdir və bir-birinin ardınca mədəsinə enirdi. Bəzən boğaz borusu mədəsindən ağzına qədər, dəmir boru tıxanan kimi, elə tıxanırdı ki, az qalırdı cırılsın. Valter Şnafs bu halda dayanıb, azacıq gözləməli olurdu. O, alma şirəsi ilə dolu dolçanı başına çəkib, boru kəmərinin tıxacını açırmış kimi boğazını təmizləyirdi.

O, bütün boşqabları, bütün şüşələri qarnına boşaltdı. Yemək-içməkdən kefi durulmuş, rəngi qızarmışdı. Hıçqırıqlardan bütün vücudu silkələnən Şnafs mundirinin düymələrini açdı ki, yaxşı nəfəs ala bilsin

O qədər yemişdi ki, durub bir addım da ata bilməzdi. Alnını stolun üstündə çarpazlaşmış qollarının arasına qoyub, tədricən hər şeyi unutdu, şirin və xoş xəyallara qərq oldu.

Xiyabanın ağacları üstündən güclə görünən üfüqü Ayın son şüaları çox zəif işıqlandırırdı. Lal sükuta qərq olmuş qəsr yerə iri qara kölgə salırdı. Birinci mərtəbədə yalnız iki pəncərədən işıq gəlirdi.

Gözlənilmədən amiranə bir səs eşidildi:

- İrəli! Hə, tez olun! Hücum, mənim əzizlərim!

Bir göz qırpımında qapılar, pəncərələr sındı, insan dalğası hücum çəkib hər yanı ələk-vələk elədi. Əllərinə keçəni sındırıb dağıtdılar və nəhayət, qəsri tam ələ keçirdilər. Valter Şnafsın özü üçün sakitcə dincəldiyi mətbəxə təpədən dırnağa qədər silahlanmış əlli əsgər sel kimi, gurultu ilə soxuldu, əlli tüfəng lüləsi alman əsgərinin sinəsinə tuşlandı. Sonra onu tutub yerə sərdilər və başdan-ayağa qədər möhkəm bağladılar.

Sinəsi qızıl medallarla bəzənmiş yekəpər bir zabit bir anda ayağını onun qarnına qoyub bağırdı:

- Siz əsir alınırsınız, təslim olun!

Qorxudan özünü itirmiş və qulaqları tutulmuş alman kəşfiyyatçısı yalnız "əsir" sözünü

eşidəndə bildi və "ya, ya ya" deyə bildi.

Onu yerdən qaldırdılar, stula oturdub, möhkəm sarıdılar. Balina kimi fısıldayan fransız əsgərləri çox diqqətlə onun pal-paltarını, ciblərini yoxladı.

Valter Şnafs gülümsəyirdi, indi əsir düşdüyünə şəkk-şübhəsi qalmadığı üçün ürəyində sevinirdi.

Mətbəxə təzəcə girmiş başqa bir zabit dedi:

- Cənab polovnik, düşmənlər qaçdı. Deyəsən, çoxlu yaralananlar var. Bizim ərazini düşmən əlinə keçməyə qoymadıq, ərazi yenə də bizim nəzarətimiz altında qalır.

Gombul zabit alnının tərini silə-silə:

-Qələbəl –deyə bağırdı. Sonra cibindən balaca bir qeyd dəftərçəsi çıxarıb yazdı:

"Qızğın döyüşlərdən sonra almanlar geri çəkilməyə məcbur oldu. Vuruşma zamanı əlli nəfər düşmən əsgəri döyüş qabiliyyətini itirdi. Almanlar geri çəkilərkən həlak olmuş və yaralanmış əsgərlərini də özləri ilə apardılar. Xeyli düşmən əsgəri əsir tutulmuşdu".

Gənc zabitin səsi yenidən eşidildi:

- Mən daha nə etməliyəm, cənab polkovnik?

- Biz geri çəkilməliyik, - polkovnik qətiyyətlə cavab verdi.

- Düşmən yeni qüvvə toplayıb, artileriya gətirib, bizə qarşı hücuma keçə bilər. Bax, bu bəladan özümüzü qorumalıyıq.

Polkovnik hamının geri çəkilməsini əmr etdi.

Qəsr divarlarının kölgəsində əsgərlər sıraya düzüldü. Valter Şnafsı əli tapançalı altı əsgər aparırdı. Onu möhkəmcə büküb sarımışdılar.

"Ehtiyat igidin yaraşığıdır" deyiblər; ordu geri çəkilsə də, ehtiyatı əldən vermək olmazdı. Əsgərlərin, eləcə də əsir düşmüş alman kəşfiyyatçısının təhlükəsizliyini təmin etmək məqsədilə ön xəttə bir neçə kəşfiyyatçı göndərildi. Geridə qalan əsgərlər çox ehtiyyatla, yavaş-yavaş irəliləyirdi. Arabir dayanıb, istirahət də edirdilər.

Dan yeri söküləndə gəlib Roş-Uazel bələdiyyə idarəsinə çatdılar. Qəsri dəfedilməz həmlə ilə alan və almanları darmadağın edən də elə bu bələdiyyə idarəsinin milli qvardiyaçılarıdır.

Camaat küçələrə çıxıb gözləyirdi. Alman əsgərinin başındakı dəbilqəni görən izdiham ucadan qışqırıb hay-həşir qopardı, söyüş, lənət yağdırdı almanlara. Qadınlar əllərini havada hədə ilə yelləyir, qoca arvadlar isə ağlayırdı. İzdihamın içindəki qoca bir kişi qoltuq ağacını Valter Şnafsın başına atdı, lakin ağac fransız əsgərlərindən birinin burnuna dəyib yaraladı.

Polkovnik bağırdı:

- Əsirin təhlükəsizliyini təmin edin!

Nəhayət, şəhər həbsxanasına gəlib çatdılar. Həbsxananın qapısını açdılar, Valter Şnafsı itələyib oraya saldılar. İki yüz nəfər silahlı əsgər həbsxanaya keşikçi təyin olundu.

Alman kəşfiyyatçısı əsir düşmək əməliyyatına əvvəllər təhlükəli, qeyri-mümkün bir iş kimi baxsa da, indi o, sevincindən yerə-göyə sığmır, əli də, ayağı da, oynayırdı. Bəli, o artıq əsir düşmüşdü, ölüm təhlükəsindən, xüsusilə acından ölmək qorxusundan yaxasını qurtarmışdı.

Beləliklə, Şampinye qəsri altı saat düşmən əlində qalandan sonra yenidən azad edildi.

Keçmiş mahud parça taciri polkovnik Batye bu əməliyyatda Roş-Uazel milli qvardiyasına bacarıqla rəhbərlik etdiyi üçün təltif olundu.

Tərcümə edən:
Əziz Gözəlov

WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS

SOUTH KOREA

EVERLAND, GYEONGGI-DO

Everland amusement park has been thrilling kids since 1973 and knows how to keep them coming. The park is divided into themed sections that range from American Adventure (a rodeo experience, a wildly swinging Columbus ship) to Zoo-Topia (Amazon River ride, Safari World). It holds the record for the world's steepest wooden roller coaster.

İSPANİYA

MADRİD

ESKORİAL MONASTIRINDA KRAL KİTABXANASI

Əsası 1557-ci ildə qoyulmuş Eskorial monastırındakı Kral kitabxanası qədim əlyazmalarının zəngînliyinə görə Vatikan kiabxanasından sonra ikinci yerdədir. Ərəb əlyazmalarının sayına gəldikdə isə, dünyada birincidir. Kitabların qorunub saxlanması məqsədilə nümayiş etdirilən ədəbiyyatın əksəriyyəti orijinalın surətidir. Məşhur ispaniyalı ərəb tədqiqatçısı Konde bir müddət bu kitabxanada çalışmışdır.

ALLAH RƏHMƏT ELƏSİN!

"DÜNYA" MƏKTƏBİNİN MÜƏLLİMİ ƏLİBƏNDƏ ƏLİYEV FACİƏLİ SURƏTDƏ VƏFAT ETMİŞDİR

2017-ci il noyabrın 11-nə keçən gecə Masazırda baş vermiş dəhşətli yanğın zamanı "Dünya" məktəbinin rəqs müəllimi Əlibəndə Əliyev 37 yaşında faciəli surətdə vəfat etmişdir.

Tanınmış rəqqas olan Əlibəndə Əliyev Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblı, Xəzər Universitetinin Mahnı və Rəqs ansamblı və Azərbaycan Dövlət Uşaq Filarmoniyasında çalışıb. Rəqqas kimi 10-dan çox ölkədə Azərbaycan rəqs ansamblının tərkibində çıxış edib.

Son illərdə Xəzər Universiteti "Dünya" məktəbində oğlanlardan ibarət rəqs ansamblının rəhbəri vəzifəsində çalışan Əlibəndə Əliyev peşəkar fəaliyyəti və səmimi davranışı ilə məktəb kollektivinin və şagirdlərin böyük rəğbətini qazanmışdı.

"Dünya" məktəbi və Xəzər Universitetinin kollektivləri iş yoldaşları Əlibəndə Əliyevin faciəli fəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitetinin kollektivi universitetin İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Kəmalə Ələkbərovaya anası

Sima Mahmudovanın

vəfatından kədərləndiyini bildirir, dərin hüzulə başsağlığı verir.
Allah rəhmət eləsin!

XƏZƏR UNİVERSİTETİNİN
DÜNYA MƏKTƏBİ

BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR

Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

Ünvan:

Bakı, Əcəmi Naxçıvani 9
Tel.: (+994 12) 563 59 40 /47 /48
Mob.: (+994 70) 844 08 88

Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

E-mail: info@dunyaschool.az
http: // dunyaschool.az

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seç!

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (İngilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

5 QRUP

- Dizayn